**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “PANDEMİYA ŞƏRAİTİNDƏ KİÇİK SAHİBKARLIQ SUBYEKTLƏRİNƏ DÖVLƏTİN MALİYYƏ DƏSTƏYİNİN ƏHƏMİYYƏTİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Qəhramanova Arzu Elşan**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**"____" ________________ 2022-ci il**

# "PANDEMİYA ŞƏRAİTİNDƏ KİÇİK SAHİBKARLIQ SUBYEKTLƏRİNƏ DÖVLƏTİN MALİYYƏ DƏSTƏYİNİN ƏHƏMİYYƏTİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060403-Maliyyə

**İxtisaslaşma:** Maliyyə menecmenti

**Qrup:** 646

**Magistrant:**
**Qəhramanova Arzu Elşan qızı**
**______________________ imza**

**Elmi rəhbər:**
**i.e.n.,dos. Məhərrəmov Ramiz Bulut oğlu ____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**
**_________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________imza**

**BAKI – 2022**

## Elm andı

Mən, Qəhramanova Arzu Elşan qızı and içirəm ki, “Pandemiya şəraitində kiçik sahibkarlıq subyektlərinə dövlətin maliyyə dəstəyinin əhəmiyyəti” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# PANDEMİYA ŞƏRAİTİNDƏ KİÇİK SAHİBKARLIQ SUBYEKTLƏRİNƏ DÖVLƏTİN MALİYYƏ DƏSTƏYİNİN ƏHƏMİYYƏTİ


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Kiçik sahibkarlıq subyektlərinin ölkə iqtisadiyyatının inkişafında əhəmiyyətli rol oynadığını nəzərə alaraq, maliyyə vəziyyətinin kifayət qədər yetərli olmaması səbəbindən dövlət tərəfindən dəstəyin göstərilməsi onların fəaliyyəti üçün əhəmiyyətli olduğu kimi olduqca aktual məsələlərdəndir.**

**Tədqiqatın məqsədi: Tədqiqat işinin əsas məqsədi pandemiyadan zərər çəkmiş sahibkarlıq subyektlərini və fərdi sahibkarları maliyyə vəsaitilə təmin etməklə həm sahibkarlıq fəaliyyətinə dəstək göstərmək, həm də ölkə iqtisadiyyatında sahibkarlığın göstərdiyi müsbət inkişaf meyillərini qoruyub saxlamaqdır.**

**İstifadə olunmuş tədqiqat metodları: Dissertasiya işində həm nəzəri, həm də praktiki metodlardan istifadə edilmişdir. Tədqiqat işinin yazılmasında istifadə olunan metodlara müqayisəli təhlil, analiz və sintez, bununla yanaşı deduksiya və induksiya metodları aid edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Dissertasiya işinin tərtib edilməsi zamanı bir sıra yerli və xarici ədəbiyyat mənbələrindən istifadə edilmişdir. Xüsusilə, statistik məlumatların müqayisəli şəkildə təhlili və tətbiq edilməsi üçün dövlət müəssisələrinin rəsmi səhifələrindən əldə edilmiş məlumatlardan istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Pandemiya şəraiti ilə əlaqədar müəssisələrə müraciət etmək və praktiki müşahidələr etməkdə yaranan çətinliklər tədqiqatın məhdudiyyətlərinə aid edilir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Dissertasiya işinin elmi yeniliyini aşağıdakı kimi sistemləşdirmək olar:**

- **mövcud olan pandemiya şəraitindən zərərçəkmiş sahibkarlara dövlətin maliyyə dəstəyinin göstərilməsi;**
- **dəstək mexanizmləri və onların istiqamətlərin müəyyənləşdirilməsi**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Dissertasiya işinin tədqiqi zamanı əldə edilmiş nəticələr, ölkəmizdə fəaliyyətdə olan yaxud bu sahəyə yeni başlamış hüquqi və fiziki şəxslər üçün vacib ola bilər. Əldə edilmiş məlumatlar əsasında irəli sürülən təkliflər kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsinə və inkişafına təkan verə bilər.**



***Açar sözlər: kiçik sahibkarlıq, maliyyə dəstəyi və pandemiya***

# THE IMPORTANCE OF GOVERNMENT FINANCIAL SUPPORT FOR SMALL ENTREPRENEURS IN PANDEMY CONDITIONS


## SUMMARY

**The actuality of the subject: Given that small businesses play an important role in the development of the country's economy, government support due to insufficient financial situation is as important for their activities as it's for them.**

**Purpose and tasks of the research: The research's main purpose is to encourage entrepreneurship by providing financial resources to businesses and individuals affected by pandemic, as well as to maintain the country's positive entrepreneurship development trends.**

**Used research methods: The dissertation research included both theoretical and practical methodologies. Comparative analysis, analysis and synthesis, as well as deduction and induction approaches, were used in the research.**

**The information base of the research: The dissertation was written using variety of local and international literature sources. For comparison study and application of statistical data, data from official websites of government agencies were employed in particular.**

**Restrictions of research: Research's shortcomings include difficulties in gaining access to businesses and conducting practical inspections owing to pandemic conditions.**

**The novelty and practical results of investigation: The dissertation's scientific uniqueness can be summarized as follows:**

- **providing governmental financial assistance to entrepreneurs afflicted by the current pandemic;**
- **defining support systems and their orientations**

**Scientific-practical significance of results: The dissertation's findings may be useful to legal entities and individuals who are currently functioning in our country or who are new to this field. Proposals based on the data collected can help small businesses expand and grow.**



***Keywords: small-sized entrepreneurship, financial support and pandemic***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **AB** | Avropa Birliyi |
| **ASC** | Açıq Səhmdar Cəmiyyət |
| **İEÖ** | İnkişaf Etmiş Ölkələr |
| **KOS** | Kiçik və Orta Sahibkarlıq |
| **KOBİA** | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi |
| **MMC** | Məhdud Məsuliyyətli Cəmiyyət |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **QSC** | Qapalı Səhmdar Cəmiyyət |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

## MÜNDƏRİCAT

**GİRİŞ**........................................................**Ошибка! Закладка не определена.**

**I FƏSİL. KİÇİK SAHİBKARLIQ SUBYEKTLƏRİNİN FƏALİYYƏTİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARIОшибка! Закладка не определена.**

1.1. Sahibkarlıq fəaliyyətinin mahiyyəti, formaları və onların səciyyəvi xüsusiyyətləri ............................................**Ошибка! Закладка не определена.**

1.2. İqtisadiyyatının inkişafında kiçik sahibkarlıq subyektlərinin rolu ......**Ошибка! Закладка не определена.**

**II FƏSİL. BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ KİÇİK SAHİBKARLIQ SUBYEKTLƏRİNİN İNKİŞAFI VƏ DÖVLƏTİN MALİYYƏ DƏSTƏYİNİN ƏHƏMİYYƏTİ**..........................................**Ошибка! Закладка не определена.**

2.1. Kiçik sahibkarlığa dövlət dəstəyinin normativ-hüquqi bazası............**Ошибка! Закладка не определена.**

2.2. Kiçik sahibkarlıq subyektlərinin inkişaf mərhələləri və müasir vəziyyəti ...... 39

2.3. Koronavirus pandemiyası dövründə kiçik sahibkarlıq subyetlərinə dövlətin maliyyə dəstəyinin iqtisadi əhəmiyyəti ............................................................ 46

**III FƏSİL. KİÇİK SAHİBKARLIQ SUBYEKTLƏRİNİN FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ** ............................................. 53

3.1. Kiçik sahibkarlıq subyektlərinin ölkənin sosial və iqtisadi inkişafda rolunun artırılması istiqamətləri ........................................................................... 53

3.2. Postpandemiya şəraitində kiçik sahibkarlıq subyektlərinin inkişafında dövlət dəstəyinin artırılması istiqamətləri ................................................................ 59

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ........................................................................ 68

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**........................................... 71

Cədvəllərin siyahısı ........................................................................................ 74

# GİRİŞ

**Mövzunun aktuallığı:** 2019-cu ilin dekabr ayından etibarən yaranmış Covid-19 virusu ilə əlaqədar olaraq, hazırda bütün dünyada və ölkəmizdə davam edən pandemiya şəraiti ilə bağlı mövcud olan çətinliklər iqtisadiyyatın əksər sahələrində olduğu kimi sahibkarlıq subyektlərinin fəaliyyətinə də mənfi təsirlərini göstərmişdir.

Bütün dünya ölkələrində olduğu kimi Azərbaycanda da, kiçik sahibkarlıq subyektlərinin inkişafına xüsusi diqqət ayrılır. Ölkə iqtisadiyyatında qeyri-neft sənayesinin payını artırmaq və inkişaf etdirmək məqsədilə kənd təsərrüfatı, ticarət, tikinti, istehsal və s. kimi sahələrin inkişafına təkan verilmişdir. Covid-19 virusu ilə əlaqədar pandemiya şəraiti yaranmazdan öncə ölkəmizin qeyri-neft sektorunda əlavə dəyərin formalaşdırılması nəticəsində kiçik sahibkarlıq subyektlərində inkişafında artım müşahidə edilmişdir. Buna baxmayaraq, pandemiya şəraitinin kiçik sahibkarlıq subyektlərinin inkişafına göstərdiyi təsir nəticəsində, dövlət tərəfindən pandemiyadan zərərçəkmiş sahibkarlara dövlət dəstəyinin göstərilməsi üçün tədbirlər planı həyata keçirilməsi üçün zərurət yaranmışdır. Nəzərə almaq lazımdır ki, cari dövrümüzdə Azərbaycanda və dünyada pandemiya şəraitinin tətbiqi hələ də davam etməkdədir. Bu səbəbdən, virusun yoluxma dairəsi, tətbiq oluna biləcək qapanmalar, karantin rejiminin bərpası və s. kimi halların sahibkarlıq subyektlərinin inkişafına mənfi təsirin göstərəcəyini qeyd edə bilərik. Həmçinin, kiçik sahibkarlıq subyektlərinin ölkə iqtisadiyyatının inkişafında əhəmiyyətli rol oynadığını nəzərə alaraq deyə bilərik ki, pandemiya şəraitində kiçik sahibkarlıq subyektlərinə dövlətin maliyyə dəstəyinin əhəmiyyəti mövzusu hazırki dövrdə öz aktuallığını qoruyur.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi**: Sahibkarlıq anlayışı iqtisadi fəaliyyətin növü kimi orta əsrlər dövründə yaranmağa başlamışdır. Sahibkarlığın nəzəri əsasları barədə D.Rikardo, K.Mark, A.Smith, C.Klark və s. kimi bir çox dünya alimləri, həmçinin, ölkəmizdə V.Niftullayev, Ə.İmanov, S.Aslanov, A.Məhərrəmov, İ.İbrahimov, A.Abbasov, M.İmranov və s. kimi iqtisadçılarımız tərəfindən araşdırmalar aparılmış və özünəməxsus fikirlər irəli çəkilmişdir.

Pandemiya şəraitinin yeni dövr ərzində formalaşdığını və hələ də davam etdiyini nəzərə alaraq, hazırda dövlətin maliyyə dəstəyi ilə bağlı məlumatları özündə əks etdirən dərin iqtisadi araşdırmalara rast gəlinməmişdir. Pandemiya şəraitinin kiçik sahibkarlıq subyektlərinin inkişafına göstərdiyi mənfi təsirlərin aradan qaldırılması üçün maliyyə dəstəyinin həyata keçirilməsi ilə bağlı məlumatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Azərbaycan Dövlət Statistika Komitəsinin və s. kimi dövlət qurumlarının rəsmi səhifələrindən, həmçinin, bir sıra yerli və xarici ədəbiyyat mənbələrindən əldə etmək mümkündür.

**Tədqiqatın məqsəd və vəzifələri**: Pandemiya şəraitinin dünya və ölkəmizdə davam etdiyi bir zamanda kiçik sahibkarlıq subyektlərinə dövlətin maliyyə dəstəyi ilə əlaqədar tədqiqat işinin aparılmasında başlıca məqsəd pandemiyadan zərər çəkmiş sahibkarlıq subyektlərini və fərdi sahibkarları maliyyə vəsaiti ilə təmin etməklə həm sahibkarlıq fəaliyyətinə dəstək göstərmək, həm də ölkə iqtisadiyyatında sahibkarlığın göstərdiyi müsbət inkişaf meyillərini qoruyub saxlamaqdır. dəstəyinin əhəmiyyəti müasir dövrdə ölkələrin iqtisadiyyatında sahibkarlıq subyektlərinin rolu, onların inkişafı və fəaliyyətinin təkmilləşdirilməsini zəruri edən başlıca amillərdəndir. Bununla əlaqədar olaraq, tədqiqatın işinin məqsədini əsas götürərək araşdırmanın edilməsində aşağıda qeyd edilənlər əsas hesab olunmuşdur:

– Sahibkarlıq subyektlərinin mahiyyəti və formalarının nəzəri əsaslarla öyrənilməsi;

– Sahibkarlıq subyektlərinin iqtisadiyyatın inkişafına təsirinin araşdırılması;

– Müasir şəraitdə kiçik sahibkarlıq subyektlərinin vəziyyətinin təhlil edilməsi və qiymətləndirilməsi;

– Pandemiya şəraitində kiçik sahibkarlıq subyektlərinə dövlətin göstərdiyi maliyyə dəstəyinin əhəmiyyətinin araşdırılması və bu sahədə maliyyə dəstəyinin genişləndirilməsi istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqat işinin obyektinə sahibkarlıq fəaliyyəti ilə məşğul olan kiçik müəssisələrinin və fərdi sahibkarlığın davamlı inkişafının və aktivliyinin təmin edilməsi, fəaliyyətinin genişləndirilməsində dövlətin maliyyə dəstəyinin və maliyyə vəsaitləri ilə təminatın əhəmiyyəti daxildir. Predmetinə isə pandemiya şəraitində sahibkarlığın inkişafında yaranmış problem və maneələr, onların aradan qaldırılması və həlli, bütövlükdə onların maliyyə təminatının təkmilləşdirilməsi daxildir.

**Tədqiqat metodları:** Dissertasiya mövzusunun tədqiqi zamanı bir sıra müxtəlif həm nəzəri, həm də praktiki metodlardan istifadə edilmişdir. Nəzəri metodlar tədqiqat işində istifadə edilmiş ədəbiyyatların öyrənilməsi ilə əlaqədardır. Praktiki metodlarda isə iqtisadi (riyazi və statistik) göstəriciləri özündə əks etdirən məlumatların qeyd edilməsi cədvəl, diaqram, qrafik və s. kimi müqayisəli təhlil vasitələrinin olması başlıca əhəmiyyət kəsb edir. Tədqiqat işinin yazılmasında müqayisəli təhlil metodu vasitəsi ilə davamlı inkişafa təsir edən və illər üzrə dəyişən göstəricilər qeyd edilmişdir.

Tədqiqat işində istifadə edilmiş metodlar sırasına analiz və sintez, bununla yanaşı deduksiya və induksiya metodları aid edilmişdir. Analiz metoduna əsasən dissertasiya işi müxtəlif fəsillərə ayrılmış, sintez metodu vasitəsi ilə isə ayrı-ayrılıqda toplanmış məlumatlar və təhlillər ümumiləşdirilmişdir.

İnduksiya metodu vasitəsi ilə mövcud problemlərə əsasən iqtisadi faktlar toplanmış və mövzuya uyğun şəkildə seçilmişdir. Deduksiya metodu vasitəsi ilə isə həmin faktlara əsasən ümumiləşdirmələr olunmuş, nəticə və təkliflərin formalaşmasında istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Dissertasiya işinin tərtib edilməsi zamanı bir sıra yerli və xarici ədəbiyyat mənbələrindən istifadə edilmişdir. Xüsusilə, statistik məlumatların müqayisəli şəkildə təhlili və dissertasiya işinə tətbiq edilməsi üçün Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi

Xidmətinin və s. kimi dövlət müəssisələrinin rəsmi səhifələrindən əldə edilmiş məlumatlardan istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Hazırda davam etməkdə olan pandemiya şəraiti ilə əlaqədar olaraq müəssisələrə müraciət etmək və praktiki müşahidələr etməkdə yaranan çətinliklər tədqiqatın məhdudiyyətlərinə aid edilir.

**Tədqiqatın elmi yeniliyi:** Hazırda ölkəmizdə kiçik sahibkarlıq subyektlərinin fəaliyyəti və onların iqtisadiyyatın inkişafında rolu qiymətləndirilmişdir. Pandemiya şəraitindən əziyyət çəkən sahibkarlara dövlət tərəfindən göstərilən maliyyə dəstəyi mexanizmləri və onların istiqamətləri müəyyənləşdirilmişdir. Bununla əlaqədar, postpandemiya dövründə kiçik sahibkarlığın iqtisadiyyatın inkişafına təsirləri və dövlət tərəfindən göstərilən yardımla bağlı araşdırmalar edilmiş və bəzi təkliflər irəli sürülmüşdür.

Kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında magistratura dissertasiyası yazılarkən qarşıya qoyulmuş məqsədlər əsasında araşdırmalar edilmiş, aşağıdakı formada dissertasiya işinin gözlənilən elmi və praktiki nəticələri qeyd olunmuşdur:

1. Dissertasiya işinin tədqiqi zamanı, ilk öncə, ölkəmizdə kiçik sahibkarlıq subyektlərinin fəaliyyəti nəzəri olaraq araşdırılmışdır.
2. Kiçik sahibkarlıq subyektlərinin ölkə iqtisadiyyatına göstərdiyi təsirlər, onların fəaliyyət sahələri və ölkəmizdə inkişaf etmiş sahibkarlıq fəaliyyəti formaları qeyd olunmuşdur.
3. Koronavirus pandemiyasının kiçik sahibkarlıq subyektlərinə göstərdiyi mənfi təsirlər barədə məlumat verilmiş, ölkəmizdə pandemiyadan zərərçəkmiş sahibkarların mövcud vəziyyəti araşdırılmış, daha sonra isə, kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi üçün dövlət tərəfindən göstərilən dəstək mexanizmləri və maddi yardımlar qeyd edilmişdir.
4. Yuxarıda qeyd olunmuş məlumatlar əsasında, kiçik sahibkarlıq subyektlərinin sosial və iqtisadi inkişafda rolunun artırılması istiqamətində fikirlər irəli sürülmüşdür.

Dissertasiya işinin tədqiqi zamanı əldə edilən nəticələr əsasında postpandemiya dövründə sahibkarlara göstəriləcək dövlət dəstəyinin artırılması və ölkəmizdə kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsi istiqamətində təkliflər hazırlana, dissertasiya və elmi əsərlərin yazılmasında, bu sahə üzrə tədris-metodik vəsaitlərin hazırlanmasında da istifadə oluna bilər.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Dissertasiya işinin tədqiqi zamanı əldə edilmiş nəticələr, ölkəmizdə hazırda fəaliyyətdə olan və ya bu sahəyə yeni başlamış hüquqi və fiziki şəxslər üçün vacib ola bilər. Belə ki, dissertasiya işinin tədqiqi zamanı əldə edilmiş məlumatlara əsasən, hazırda ölkəmizdə fəaliyyətdə olan kiçik sahibkarlıq subyektlərinin cari vəziyyəti müəyyənləşdirilmiş, onların inkişafına kömək göstərmək məqsədilə dövlət tərəfindən təklif olunan dəstək mexanizmləri və istiqamətləri müəyyənləşdirilmişdir. Qeyd edilən, əldə edilmiş məlumatlar əsasında irəli sürülən təklifləri rəhbər tutaraq deyə bilərik ki, tədqiqat işi kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsi və inkişafı üçün "rəhbər" rolunu oynaya bilər.

# I FƏSİL. KİÇİK SAHİBKARLIQ SUBYEKTLƏRİNİN FƏALİYYƏTİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI

## 1.1. Sahibkarlıq fəaliyyətinin mahiyyəti, formaları və onların səciyyəvi xüsusiyyətləri

Sahibkarlıq – mövcud resurslardan səmərəli şəkildə istifadə edə bilmək, onları faydalı şəkildə bölüşdürə bilmək və işin faydalılığını qiymətləndirmək kimi xüsusiyyətləri özündə cəmləşdirir. Bəzən "sahibkarlıq" və "biznes" anlayışları sinonim kimi istifadə edilsə də, biznes tamamilə geniş bir anlayışdır və onun tərkibinə istehlak, kommersiya, əmək biznesi və s. kimi anlayışlar daxildir. Sahibkarlıq isə onun tərkib hissəsi hesab olunur. Sahibkarlıq da daxil olmaqla, biznesin hər bir növü bir-birilə qarşılıqlı və sıx əlaqədə fəaliyyət göstərsələr də, hər biri öz maraqlarının reallaşdırılması üçün çalışırlar.

Sahibkarlığın həm nəzəri, həm də praktiki əsaslarının öyrənilməsi mürəkkəb və çoxşaxəli xarakter daşıyır. Sahibkar anlayışı orta əsrlər dövründə yaranmağa başlamışdır. İlk dəfə bu termini fransız iqtisadçısı R.Kantilon istifadə etmişdir. XVIII əsrdə yaşamış bu alimin fikrincə sahibkar daim yeniliklərə, yeni ideya və fikirlərə açıq, həmçinin riski gözə alan bir şəxsdir. R.Kantilon daim sabit gəlirli və əmək haqqı əldə edərək çalışan şəxsləri sahibkar hesab etmirdi. R.Kantilonla yanaşı həmin dövrdə yaşamış digər iqtisadçı alimlər tərəfindən də, sahibkarlıq ilə əlaqədar fərqli fikirlər bildirilmişdir.

XVIII əsrdə yaşamış fransız iqtisadçılarından olan J.Seyin araşdırmasına əsasən, sahibkarlıq torpaq, əmək və kapital kimi üç əsas amilin birləşməsi nəticəsində formalaşmışdır. Onun fikrincə, sahibkar riski gözə alan, öz əməyinə və qabiliyyətinə əsasən gəlir əldə edən şəxsdir. XIX əsrdə yaşamış digər fransız iqtisadçısı A.Marşal isə J.Seyin fikirlərinə əlavə olaraq dördüncü amil kimi təşkilatçılıq qabiliyyətini də sahibkarlığın tərkib hissəsinə əlavə etmişdir. Həmçinin, o sahibkarlığı iqtisadiyyatın inkişafında və cəmiyyətin sosial həyatının formalaşmasında başlıca əsas amillərdən biri kimi qiymətləndirmişdir.

Onlardan fərqli olaraq, XX əsrdə yaşamış amerikan iqtisadçısı C.Klark, A.Marşal və J.Seyin fikirlərinə əlavə olaraq sahibkarlıq fəaliyyəti ilə əlaqədar istehsal prosesində 4 əsas faktoru xüsusilə qiymətləndirmişdir. Bunlara 1) sahibkarlıq qabiliyyəti 2) işçi qüvvəsi 3) kapital 4) istehsal vasitələri və torpaq amilləri daxildir. Bu qeyd edilən faktorların hər birini, müəyyən vasitələrlə bir-birilə və onların əldə etdiyi qazancla əlaqələndirilmişdir.

Həmçinin qeyd etmək lazımdır ki, A. Smit, D.Rikardo kimi ingilis iqtisadçıları da, sahibkarlıq fəaliyyətini sahibkarın riski olaraq qiymətləndirmiş və onların əldə etdiyi qazancı riskə görə əldə edilən kompensasiya adlandırmışlar. Sahibkarlıq fəaliyyəti ilə əlaqədar araşdırmalar nəticəsində əldə edilmiş məlumatlara əsasən, müxtəlif fikirlərin qeyd edildiyini və müxtəlif iqtisadçı alimlər tərəfindən fikirlərin formalaşdığını qeyd edə bilərik. Hər birinin özünə məxsus yanaşmaları və fikirləri vardır.

Bu fikirlərə əlavə olaraq, XX əsrin sonlarında yaşamış Nobel mükafatçısı, iqtisadçı alim F.Xayek sahibkarlığı təkcə bu qeyd edilənlərlə məhdudlaşdırmır. O bildirir ki, sahibkarlıq iqtisadi artımın əsas hərəkətverici qüvvəsi, iqtisadi inkişafın artırılmasında yeni yol və üsulların öyrənilməsi üçün başlıca əsas amillərdən hesab edilir. Əlavə olaraq, sahibkarlıq ilə əlaqəli fikirlər irəli sürmüş, araşdırmalar aparmış şəxslər sırasına İ. Şumpeter, Bodo, A.Şapiro, F.Uoker, ölkəmizdə isə V.Niftullayev, Ə.İmanov, S.Aslanov, A.Məhərrəmov, İ.İbrahimov, A.Abbasov, M.İmranov və digərlərini qeyd etmək olar.

SSRİ süqut etdikdən sonra, bazar iqtisadiyyatına keçid şəraiti ilə əlaqədar olaraq bir çox MDB ölkələrində, eyni zamanda Azərbaycanda sahibkarlıq məhfumu siyasətçilər, alimlər, həmçinin əksər işgüzar dairələrin zamanla marağına səbəb olmuş və bu sahədə məqalələr, elmi əsərlər ərsəyə gətirilmişdir.

Professor T.Ə.Quliyev bildirmişdir ki, Azərbaycanda və digər keçmiş SSRİ dövlətlərində sahibkarlıq Qərb ölkələri ilə müqayisədə təbii formada deyil, bazar münasibətlərinin kifayət qədər təkmilləşdirilmədiyi, inhisarçı meyillər çərçivəsində, qısa zaman ərzində və əhalinin istehlak tələbatının zəif təmin edilməsi şəraitində formalaşmağa başlamışdır.

Həm xarici, həm də yerli iqtisadçıların araşdırmalarına görə, sahibkarlığın konkret tərifinə rast gəlmək mümkün deyildir. Müəlliflərin hər birinin ifadə etdiyi fikirlərə əsasən, sahibkarlıq fəaliyyəti mənfəət əldə etmək məqsədilə, fiziki və hüquqi şəxslərin əmlakı ilə cavabdehlik daşıdığı işgüzar fəaliyyət hesab olunur.

Sahibkarlıq haqqında irəli çəkilən müddəalara diqqət yetirdikdə müxtəlif fikirlərə rast gəlsək də, hər birində sahibkarın yenilikçi, yaradıcı və riski gözə alan bir şəxs kimi qiymətləndirildiyini görə bilərik.

Ümumilikdə isə, sahibkar yeni müəssisə və təşkilatın yaradılmasında rolu olan, yeni məhsul və ya xidmətin işlənib hazırlanmasında bütün məsuliyyəti və riski öz üzərinə götürən, həmçinin işin faydalılığını müəyyən edə bilən və sahibkarlıqla məşğul olan şəxsdir.

Sahibkarlıq fəaliyyəti haqqında danışmazdan öncə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının “Sahibkarlıq fəaliyyəti haqqında” Qanununa əsasən *“Sahibkarlıq - şəxsin müstəqil şəkildə həyata keçirdiyi, əmlakın istifadə edilməsi məqsədilə, iş və ya xidmətlərin görülməsindən, malların istehsalı və ya satışından mənfəət əldə edilməsi nəzərdə tutulan fəaliyyətdir”.* **Mənbə:** http://www.e-qanun.az/framework/7920

Sahibkarlıq fəaliyyəti dövlət qurumları ilə sahibkar arasında qarşılıqlı əlaqəni müəyyənləşdirən, sahibkarlıq prinsiplərini və sahibkarların hüquq və vəzifələrini aydınlaşdıran bir fəaliyyətdir. Sahibkarlıq fəaliyyəti həm fiziki, həm də hüquqi şəxslərin qanunvericiliklə qadağan olunmayan, şəxsi gəlir və ya mənfəət əldə etmək məqsədi ilə müstəqil şəkildə həyata keçirdikləri təşəbbüskarlıq fəaliyyətidir.

Sahibkarlıq fəaliyyətinin formalaşmasına sosial, iqtisadi, hüquqi və s. kimi amillərin böyük təsiri vardır. Sahibkarlığın formalaşması və inkişafı ölkənin coğrafi mövqeyi, təbii sərvətləri, təbii iqlim şəraiti və s. kimi amillərlə əlaqələndirilir. Ölkənin əlverişli coğrafi mühiti sahibkarlığın formalaşması və inkişafı ilə yanaşı, xarici investorların da cəlbinə zəmin yaradır. İnvestorların ölkəyə cəlbində isə infrastrukturla bağlı amillərin başlıca rol oynadığını qeyd etmək lazımdır.

Müasir dövrdə sahibkarlığın formalaşması elmin və texnikanın inkişaf səviyyəsi ilə sıx bağlıdır. Texnologiyanın inkişaf səviyyəsi artıqca yeni müəssisə və

istehsal sahələrinin yaranması sürətlənir. Həmçinin qeyd etmək lazımdır ki, təcrübəyə əsasən inkişaf etmiş və inkişaf etməkdə ölkələrdə, eləcə də Azərbaycanda sahibkarlıq fəaliyyətinin formalaşmasına təsir göstərən bir sıra sosial-iqtisadi amillər vardır ki, bunlara sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxsin şəxsi keyfiyyətləri, təcrübəsi, dünyagörüşü, işgüzarlığı, yüksək təşkilatçılıq qabiliyyəti və s. daxildir. Sahibkarlığın formalaşmasının hüquqi təsirinə isə sahibkarlıq fəaliyyətinin tənzimlənməsi ilə əlaqədar qəbul edilmiş qərarların tətbiqi, sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisələrin yaradılması, qeydiyyatdan keçirilməsi, xarici ölkələrlə birgə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi və s. kimi amillər daxil edilmişdir.

Fəaliyyət növündən və sahəsindən, mülkiyyət formasından asılı olmayaraq sahibkarlıqla əlaqədar münasibətlər beynəlxalq hüquq öhdəliklərilə tənzimlənir. Elm və texnikanın inkişafı, bazar iqtisadiyyatının formalaşması və iqtisadi münasibətlərin genişlənməsi sahibkarlığın təşkilatı-hüquqi formalarının meydana gəlməsinə səbəb olmuşdur. Qanun çərçivəsində sahibkarlığın təşkilati-hüquqi və ya mülkiyyət formasından asılı olmayaraq bütün formalarının həyata keçirilməsinə icazə verilir və onlar bərabər hüquqa malikdirlər. Ümumilikdə sahibkarlıq fəaliyyəti geniş bir məhfumdur və onun müxtəlif formaları vardır.

Sahibkarlığın formalaşması və yeni formalarının yaranması təsərrüfat və xüsusi mülkiyyət formalarının inkişaf etdirilməsi ilə əlaqələndirilir. Təsərrüfat formalarının yaranması isə birbaşa xüsusi mülkiyyətin yeni formalarının yaranması ilə səciyyələnir. Nəticə etibarilə, sahibkarlıq fəaliyyətinin müxtəlif formalarının yaranması üçün zərurət yaranır.

Sahibkarlıq subyekti dedikdə, Azərbaycan Respublikasının fəaliyyət qabiliyyəti olan hər bir vətəndaşı və mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi şəxslər (xarici hüquqi şəxslər daxil olmaqla), həmçinin hər bir xarici vətəndaş nəzərdə tutulur. Bir sözlə, sahibkarlıq fəaliyyəti ilə həm fiziki, həm də hüquqi şəxslər məşğul ola bilər və onlar sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində eyni hüquqa malikdirlər. Aşağıda sahibkarlıq fəaliyyətinin təşkili formaları qeyd olunmuşdur.

**Cədvəl 1: Sahibkarlıq fəaliyyətinin hüquqi formaları**

| **Fiziki şəxslər** | **Hüquqi şəxslər** |
|---|---|
| Fərdi sahibkarlıq | Tam ortaqlıq |
| Kollektiv sahibkarlıq | Kommandit ortaqlıq |
| | Məhdud Məsuliyyətli Cəmiyyət |
| | Səhmdar Cəmiyyəti |
| | Kooperativ |

**Mənbə:** https://www.economy.gov.az/article/legal-forms-of-business/21411

Sahibkarlıq fəaliyyətini həm nəzəri, həm də praktiki baxımdan 1) mülkiyyət forması və sayına görə; 2) təşkilatı-hüquqi formalarına görə; 3) fəaliyyətin miqyasına görə; 4) fəaliyyətin növünə görə və s. kimi müxtəlif şəkildə təsnifləşdirə bilərik.

Fiziki şəxslər - Azərbaycan Respublikası ərazisində yaşayan bütün vətəndaşlardır (daimi və ya müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər). Fiziki şəxslər də mülki hüquqlara malikdir və mülki vəzifələr daşıyır.

*Fərdi sahibkarlıq* – Sahibkarlığın ən geniş yayılmış və ən asan formalarındadır. Fiziki şəxslər tərəfindən hüquqi şəxs yaratmadan gəlir əldə etmək məqsədilə yaratdıqları sahibkarlıq formalarından biridir. Fərdi sahibkarlıq formasında bütün risk və məsuliyyət həmin şəxslər tərəfindən qəbul edilir. Elə bu səbəbdən də, risk fərdi sahibkarlığın başlıca zəif cəhəti olaraq qiymətləndirilir. Ona görə də, sahibkarın biznesində əldə etdiyi uğursuzluq tamamilə əmlakın itkisi ilə nəticələnə bilər. Digər tərəfdən isə fərdi sahibkarlıq subyektləri üçün maliyyə resurslarının və artım potensialının azlığı və s. kimi hallar səciyyəvidir. Qərarların qəbul edilməsinə və mülkiyyətçilərin sayına görə sahibkarlığın fərdi forması ilə yanaşı, kollektiv sahibkarlıq kimi  fəaliyyət formasını da qeyd edə bilərik.

*Kollektiv sahibkarlıq* – fərdi sahibkarlıqdan fərqli olaraq bu sahibkarlıq fəaliyyəti formasında qərarlar bir və ya bir neçə şəxs tərəfindən qəbul edilir. Bu fəaliyyət formasında təsərrüfat qərarları kollektiv formada qəbul edilir və kollektivin hər bir üzvü bütün risk və məsuliyyəti öz üzərinə götürür. Çətinliklərə baxmayaraq,

ölkəmizdə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektləri mövcuddur.

Hüquqi şəxslər - həm fiziki, həm də hüquqi şəxslərin iştirakı ilə fiziki və ya hüquqi şəxslər tərəfindən yaradıla bilər. Hüquqi şəxs müstəqil balansı olan xüsusi yaradılmış bir qurumdur. Hüquqi şəxslər qanunla müəyyən edilmiş qaydada qeydiyyata alındığı andan, mülki vəzifələr daşımaq, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq və s. kimi hüquqlara malikdir. Hüquqi şəxslər iki qrupa ayrılır:

*Kommersiya hüquqi şəxsləri:* Əsas məqsədi mənfəət əldə etmək olan bütün hüquqi şəxslər

*Qeyri-Kommersiya hüquqi şəxsləri:* Hüquqi şəxslərin ittifaqları, fondlar, ictimai birliklər və s.

Bu tip hüquqi şəxslərdə əsas məqsəd elm və təhsilin, idman və bədən tərbiyəsinin inkişafına, insan hüquqlarının və ictimai mənafelərin qorunmasına və s. nail olmaqdır. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi, sahibkar fəaliyyətə fərdi və ya kollektiv şəkildə başlaya bilər. Bu isə sahibkarların şəxsi subyektiv fikirlərindən asılı olduğundan, onlar fəliyyətə başlayanda buna qərar verməlidirlər. Bu qərarlara həm subyektiv, həm də obyektiv amillər təsir göstərir. Belə ki, bunlara sahibkarın maliyyə vəziyyəti, qabiliyyəti, sahib olduğu kapitalın həcmi və s. kimi amillər təsir göstərir.

Ortaqlıqlar (birliklər və ya şəriklər), cəmiyyətlər və koorporativlər sahibkarlıq fəaliyyətinin təşkilati-hüquqi formalarına aid edilir. Təsərrüfat ortaqlığı tam ortaqlıq və kommandit ortaqlığı adında iki fərqli formada yaradıla bilər. Tam ortaqlıq əsasında fəaliyyətə başlayan müəssisələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan iştirakçılar öz aralarında müqavilə bağlayır və mənsub olduqları iştirakçıların əmanətlərinə əsasən formalaşan əmlaka görə məsuliyyət daşıyırlar. Tam ortaqlıq müəssisələrində mənfəət və zərər göstəriciləri razılaşdırılmış qaydada onun iştirakçıları arasında mütənasib formada bölüşdürülür.

*Kommandit ortaqlığını* tam ortaqlıq müəssisələrinə nisbətən bəzən qarışıq ortaqlıqda adlandırırlar. Kommandit ortaqlığında tam ortaqlıq müəssisələrindən

fərqli olaraq, bütün öhdəlikləri öz üzərinə götürərək əmlakı ilə məsuliyyət daşıyan iştirakçılarla yanaşı, ortaqlığın sahibkarlıq fəaliyyətində iştirak etməyən zərər üçün müəyyən olunmuş maya dəyəri həddində risk daşıyan iştirakçılar da mövcud olur. Həmçinin, onu da qeyd etmək lazımdır ki, həm tam ortaqlıq, həm də kommandit ortaqlığı müəssisələri heç bir nizamnaməyə malik olmurlar. Onlar təsis müqaviləsinə əsasən yaradılaraq fəaliyyət göstərirlər.

Təsərrüfat cəmiyyətlərindən danışarkən məhdud məsuliyyətli cəmiyyətlər, əlavə məsuliyyətli cəmiyyətlər, səhmdar cəmiyyətlər və asılı cəmiyyətlərdən xüsusilə vurğulamaq lazımdır. **Mənbə:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi 64-113

Məhdud Məsuliyyətli Cəmiyyətlər (MMC) bir və ya bir neçə fiziki və ya hüquqi şəxs tərəfindən nizamnamə ilə müəyyən edilmiş qaydada təsis edilir. Bu cəmiyyətlərdə hər bir iştirakçının kapitalının dəyəri əsasında nizamnamə kapitalı formalaşır. MMC-lərin əsasən cəlbedici xüsusiyyətlərindən biri onların iştirakçılarının məhdud məsuliyyətə malik olmasıdır. Cəmiyyətin iştirakçıları zərər üçün qoyduqları əmanətlərin dəyəri həddində risk daşısa da, lakin öhdəliklər üzrə cavabdehlik daşımırlar. MMC-ləri bəzən kiçik ailə müəssisələrinə bənzədirlər, çünki onlar az sayda iştirakçı cəlb edə bilir və hər biri öz şəxsi əmlakına görə cavabdehlik daşıyırlar. MMC-lərin üzvləri cəmiyyətin idarəedilməsində, fəaliyyətində, mənfəət bölgüsündə, ləğvetmə və s. kimi proseslərin həyata keçirilməsində müəyyən hüquqa malikdirlər. Qanunvericiliyə əsasən MMC-lərin iştirakçılarının sayı müəyyən edilmiş həddi keçməməlidir. Digər halda isə, bir il müddətində Səhmdar Cəmiyyət olaraq formalaşmalı və həmin müddət bitdikdən sonra onun iştirakçıları qanunla müəyyən edilmiş qaydada azaldılmalıdır, əks halda məhkəmə qaydasında ləğv edilməlidir. Həmçinin, MMC-lərin xüsusi bir fərqi də vardır ki, onlar fəaliyyəti haqqında olan məlumatları ictimai mətbuata aşkar şəkildə bildirmirlər. Burada, müəssisənin fəaliyyəti ilə bağlı sirləri sahibkarlar tərəfindən etibarlı şəkildə qorunur.

Əlavə Məsuliyyətli Cəmiyyətlər Məhdud Məsuliyyətli Cəmiyyətlərdən fərqli olaraq təsis müqaviləsi əsasında formalaşır. Onun iştirakçıları nəinki öz əmanətləri üzrə, həmçinin cəmiyyətin digər iştirakçıları ilə birgə cəmiyyətin bütün fəaliyyətinə

görə öhdəlik daşıyır. Əgər, iştirakçılardan biri zərər edərsə bu zaman onun öhdəlikləri digər iştirakçılar arasında müştərək qaydada bölüşdürülür.

Müasir şəraitdə bazar iqtisadiyyatının əsas subyekti kimi nümayiş olunan səhmdar cəmiyyətlər aşağıda qeyd olunmuş xüsusiyyətlərə əsasən kommersiya təşkilatlarının əsas forması hesab olunur:

– Müasir dövrdə istehsal olunan məhsul və ya xidmətlərin təşkili və istehlakını təmin edir;

– Cəmiyyətin sosial rifahını və istehsalın artımını müəyyənləşdirir;

– Əsasən pul kapitalı və iri əmtəələri özündə cəmləşdirir;

– Siyasi proseslərlə birbaşa əlaqəlidir;

– Müxtəlif sahələrdə texniki tərəqqinin əldə edilməsinə imkan yaradır və s.

Səhmdar Cəmiyyətlər nizamnamə kapitalı müəyyən edilmiş sayda səhmlərə bölünən, fiziki və ya hüquqi şəxslərin könüllü razılığı əsasında *Qapalı Tipli Səhmdar Cəmiyyət və ya Açıq Tipli Səhmdar Cəmiyyət* fomasında yaradılan cəmiyyətdir. Səhmdar Cəmiyyətlər sahibkarlıq fəaliyyəti formalarının müasir dövrdə ən geniş yayılmış formalarındandır. Ölkə iqtisadiyyatının inkişafında mühüm rola malik olduğundan onların inkişafı və təkmilləşdirilməsinə geniş şərait yaradılmışdır. İstər Qapalı Tipli Səhmdar Cəmiyyətlərdə (QSC), istərsə də Açıq Tipli Səhmdar Cəmiyyətlərdə (ASC) iştirakçılar yalnız öz səhmlərinin həcminə görə öhdəlik daşıyırlar.

*Qapalı Tipli Səhmdar Cəmiyyətlər (QSC)* səhmləri təkcə təsisçiləri arasında bölüşdürülə bilən və təsisçilərin razılığı ilə özgəninkiləşdirilə bilən cəmiyyətdir. Bir sözlə, QSC-lər səhmlərini birbaşa olaraq kənar şəxslərə əldə etmək üçün təklif edə bilməz. QSC-lərin səhmlərini yalnız onun təsisçiləri və ya öncədən müəyyən edilmiş digər şəxslər əldə edə bilərlər. Bu səhmlərin təsisçilər tərəfindən bağlanmış müqavilə əsasında müəyyən edilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi standartlara əsasən, QSC-lərin iştirakçılarının sayı 50 fiziki və ya hüquqi şəxslərdən ibarət olmalıdır, əks təqdirdə özünü 1 il müddətində Açiq Tipli Səhmdar Cəmiyyət (ASC) olaraq elan etməldir. Həmin müddətdə isə onların sayı

müəyyən edilmiş həddə endirilməli, əks halda isə məhkəmə qaydasına uyğun şəkildə ləğv edilməlidir.

*Açiq Tipli Səhmdar Cəmiyyətlər (ASC)* cəmiyyətin digər iştirakçılarının razılığı olmadan səhmləri özgəninkiləşdirilə bilən cəmiyyətdir. ASC-lər sərbəst formada birbaşa özü, birja və ya bank vasitəsi ilə səhmlərin satışını həyata keçirir. QSC-lərdən fərqli olaraq səhmdarların sayı ASC-lərdə məhdudlaşdırılmır. Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən müəyyən edilən formalara əsasən bu müəssisələr hər il öz fəaliyyəti haqqında ictimai mətbuata ətraflı məlumat verməlidir. Cəmiyyət və onun məsul şəxsləri bu məlumatların düzgünlüyünə əsasən məsuliyyət daşıyırlar.

Asılı Cəmiyyətlər bu tip müəssisələr xüsusilə İnkişaf Etmiş Ölkələr (İEÖ) üçün səciyyəvidir. Bu cəmiyyətləri bəzən “Qız” müəssisələr adlandırırlar. Onlar təsərrüfat ortaqlıqları və təsərrüfat cəmiyyətlərinin nizamnamə kapitalının həcmində mühüm mövqe tutur və qərarların qəbul edilməsində iştirak edirlər. Buna baxmayaraq, əsas cəmiyyətlərin borclarına görə məsuliyyət daşımırlar.

Sahibkarlıq fəaliyyətinin hüquqi formalarından biri də istehsal koorporativlərdir. İstehsal koorporativləri dedikdə, fiziki və ya hüquqi şəxslərin birgə fəaliyyəti nəticəsində, iştirakçıların maddi və ya digər tələbatlarının ödənilməsi məqsədilə yaradılan vətəndaşların könüllü ictimai birliyi nəzərdə tutulur. Ölkə iqtisadiyyatının inkişafında hərtərəfli rol oynayan təsərrüfat formalarından biridir. İstehsal koorporativləri onların iştirakçılarının əmlakından pay əldə etməklə formalaşır. İstehsal koorporativləri dedikdə istehsalla yanaşı, kənd təsərrüfatı, sənaye, emal və s. kimi digər xidmət sahələri nəzərdə tutula bilər. İstehsal koorporativlərinin digər cəmiyyətlərdən fərqli xüsusiyyəti, onların səhm buraxmaq imkanına malik olmamasıdır. Həmçinin onu da qeyd etmək lazımdır ki, istehsal koorporativləri ümumi yığıncaqda onların üzvləri tərəfindən təsis sənədləri əsasında formalaşır. Hazırda dünyanın əksər inkişaf etmiş Avstriya, İtaliya, İsveç, Almaniya, Danimarka, İngiltərə, Norveç, Kanada və s. kimi ölkələrində iqtisadiyyatın inkişafında mühüm rol oynayan iri və güclü koorporativlər fəaliyyət göstərir.

Son olaraq, sahibkarlıq fəaliyyətinin mülkiyyətin formasına görə dövlət və ya bələdiyyə quruluşlu unitar müəssisələr formasından danışacağıq. Unitar müəssisələr 2 formada olur və dövlət mülkiyyətinə əsaslanır. Bunlara 1) əmlakı bütövlükdə dövlətə məxsus; 2) səhm nəzarəti dövlətə məxsus müəssisələr aiddir. Bəzi ölkələrdə olduğu kimi, Azərbaycanda da, nəqliyyat, rabitə, qaz və enerji və s. kimi sahələr iqtisadiyyatın başlıca fəaliyyətini təmin edir. Bu sahələr birbaşa olaraq dövlət müəssisələrinin nəzarəti daxilindədir. Burada əsas məqsəd əhalinin tələbatını ödəməkdən ibarətdir. Digər müəssisələrdən fərqli olaraq, burada müəssisənin əmlakı işçiləri və ya digər şəxslər arasında bölüşdürülmür. Bu müəssisələr birbaşa olaraq dövlət və bələdiyyə müəssisələri olduğundan operativ və dövlət tərəfindən müəyyən edilmiş rəhbər şəxs tərəfindən idarəetmə əsasında yalnız onların mülkiyyətində fəaliyyət göstərirlər.

Fəaliyyətin növünə və istiqamətinə görə sahibkarlıq fəaliyyətini kommersiya, istehsal, maliyyə, məsləhət, innovasiya və s. kimi formalara ayırmaq mümkündür. Onlar qarşılıqlı əlaqədə fəaliyyət göstərərək, bir-birilərini tamamlayırlar. İlk öncə, onların içərisində mürəkkəbliyi ilə seçilən, iqtisadiyyatın inkişafında əsas rol oynayan istehsal sahibkarlığından danışacağıq.

İstehsal sahibkarlığı istehlakçıların tələbatını ödəmək məqsədi ilə, əmtəə və xidmətlərin istehsalı prosesi və işin görülməsi istiqamətində, elmi-texniki fəaliyyətin inkişafı, innovasiya və s. kimi amilləri özündə əks etdirir. İstehsal sahibkarlığının əsasını əmtəə və məhsul istehsalı və xidmətin göstərilməsi tutur və bunlar sahibkarlıq subyektləri tərəfindən müəyyən mənada dəyər ölçüsü yaradılaraq həyata keçirilir.

Kommersiya sahibkarlığı bazar iqtisadiyyatının hakim olduğu dövrdə ən geniş yayılmış sahibkarlıq formalarından biridir. Onun əsasını alqı-satqı münasibətləri təşkil edir. Xüsusilə 2 mühüm xüsusiyyət kommersiya sahibkarlığının inkişafına təkan verir. Bunlara 1) məhsula olan tələbat 2) məhsulun münasib qiyməti aid edilir. Kommersiya sahibkarlığı birbaşa olaraq istehlakçıların tələbatına uyğun fəaliyyət göstərdiyindən bazar şəraitinə tez bir zamanda uyğunlaşır.

Maliyyə sahibkarlığı müasir dövrün tələblərini rəhbər tutmuş, bank işi, valyuta mübadiləsi və qiymətli kağızların alqı-satqısı sahəsində formalaşan bir fəaliyyət növüdür. Onun fəaliyyətinin əsasında kommersiya bankları və fond birjaları dayanır. Mahiyyət etibari ilə, müştərilərə kredit verilməsi (müddəti, faizi, əsası və s.), əmanətlərin cəlb edilməsi və s. kimi amillər sahibkarlığın əsas fəaliyyət sahələrindəndir.

İnnovasiya sahibkarlığı elmi-texniki tərəqqinin hakim olduğu müasir dövrdə texniki, ictimai və iqtisadi proses kimi yeni fikir və ixtiralar əsasında müasir tipli texnologiya və yeni məhsulların yaradılmasını təmin edir. Texnoloji inkişaf sayəsində iqtisadiyyatda əldə edilən nailiyyətlər sürətli kapital cəlbinə və sahibkarlığın bu sahəsinin inkişafına əlverişli şərait və geniş imkanlar yaradır. Bu isə, innovativ sahibkarlığa günbəgün tələbatın artması ilə əlaqədardır. Bu səbəbdən, bu sahədə dövlət himayədarlığının və elmi-texniki siyasətin həyata keçirilməsi üçün zərurət yaranır.

Məsləhət (konsultativ) sahibkarlıq iqtisadiyyatın inkişaf etdiyi və təbii resurslardan istifadənin məhdudlaşdırıldığı bir dövrdə, digər sahibkarlıq formalarına səmərəliliyin yüksəldilməsi istiqamətində məsləhət göstərilməsinə xidmət edir. Başlıca əlamətləri malların alqı-satqısı prosesi və idarəçilik prinsiplərində özünü əks etdirir. Bu sahibkarlıq forması nəinki öz fəaliyyəti ilə, həmçinin digər sahibkarlıq formalarının göstərdiyi xidmət, inkişaf xüsusiyyəti, istehsal keyfiyyəti ilə və s. maraqlanır. Daha öncə qeyd etdiyimiz kimi, sahibkarlığın bu formalarının bir-biri ilə qarşılıqlı əlaqəsi özünü fəaliyyət sahələrinə təsir edilməsində xüsusilə əks etdirir. Məsləhət sahibkarlığında intellektual kapitalın cəlbi yeni texnologiyanın tətbiqi və ya yeni avadanlığın əldə edilməsindən daha səmərəli hesab olunur.

Araşdırmalardan əldə etdiyimiz nəticələrə əsasən, dünya iqtisadiyyatına inteqrasiyanın təmin edilməsi üçün innovasiya və məsləhət sahibkarlığının inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb etdiyindən, bu sahədə subyektlərin yaradılması və inkişaf etdirilməsi zəruri hesab olunur.

Əldə etdiyimiz məlumatlara əsasən deyə bilərik ki, rəqabətli bazar iqtisadiyyatının hakim olduğu bir dövrdə, hər bir sahibkarlıq müəssisəsi və

sahibkarın əsas məqsədi rəqabətə davamlı məhsul istehsal etmək və onun dünya bazarına çıxarmaqdan ibarətdir. Sahibkarlıq fəaliyyəti formalarının inkişafı ölkənin digər ölkələrlə münasibətdə iqtisadi mövqeyi və əlaqələri, eyni zamanda beynəlxalq inteqrasiyasından ibarətdir. Həmçinin, daha öncə qeyd etdiyimiz kimi, müasir dövrdə sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafı elm və texnikanın inkişafı, yeni texnologiyaların tətbiqi ilə birbaşa əlaqəlidir.

## 1.2. İqtisadiyyatının inkişafında kiçik sahibkarlıq subyektlərinin rolu

Sahibkarlıq anlayışının orta əsrlərdə yaranmasına və iqtisad elminin klasssikləri tərəfindən araşdırmalar edilməsinə baxmayaraq, müasir dövrdə də, iqtisadçı alimlər tərəfindən bu mövzuda araşdırmanın edilməsi davam etməkdədir. Mövzunun aktuallığını qoruyub saxlaması sahibkarlığın iqtisadiyyatın inkişafında rolunu və mühüm əhəmiyyət kəsb etdiyini göstərən başlıca amillərdəndir.

Azərbaycan Respublikası Nazirlər kabinetinin 21 dekabr 2018-ci il tarixli, 1816 №-li qərarına əsasən sahibkarlıq subyektlərinin bölgüsü aşağıdaki kimi müəyyən edilmişdir.

**Cədvəl 2: Sahibkarlıq subyektlərinin bölgüsü**

| Ölçüsünə görə | Mikro sahibkar | Kiçik sahibkar | Orta sahibkar | İri sahibkar |
|---|---|---|---|---|
| İşçilərin orta siyahı sayı (nəfər) | 1-10 | 11-50 | 51-250 | 251-dən yuxarı |
| İllik gəliri (manat) | ig ≤ 200 | 200 < ig ≤ 3.000 | 3.000 < ig ≤ 30.000 | 30.000 < ig |

**Mənbə:** https://nk.gov.az/az/document/3251/

Cədvəldə kiçik, orta və iri sahibkarlıq subyektlərinin spesifik xüsusiyyətləri qeyd edilmişdir. Bildirmək istərdik ki, cədvəl 2-də qeyd olunmuş məlumatlar Azərbaycan Dövlət Statistika Komitəsinə ötürülmüş məlumatlara əsasən müəyyən edilir və il ərzində dəyişilməz olaraq qalır.

Kiçik sahibkarlıq subyektləri iqtisadi inkişafa, əhalinin iqtisadi fəallığının artmasına və istehsalın canlanmasına güclü təsir göstərən vasitədir. İqtisadiyyatın sürətli və nəticəli sahələrindən hesab olunan kiçik sahibkarlıq ÜDM-in xeyli

hissəsinin yaradılmasında, əhalinin iqtisadi fəallığının əsas hissəsinin təmin edilməsində, eyni zamanda çevik, rəqabətədayanıqlı və diversifikasiyalı iqtisadiyyatın formalaşmasında mühüm rol oynayır.

Sahibkarlıq subyektlərinin hər hansı formasının inkişaf etdirilməsi 2 mühüm şərtdən ibarətdir:

1) ölkə və regionlarda baş verən iqtisadi proseslər;

2) sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxsin hüquq və imkanlarından səmərəli istifadəsi.

Bazar iqtisadiyyatının əsas tərkib hissəsi hesab edilən sahibkarlıq kiçik biznesdə öz əksini tapmışdır. Dünya təcrübəsi göstərir ki, kiçik müəssisələr ölkənin iqtisadi inkişaf sürətinə, ümummilli məhsulun həcmi və keyfiyyətinə başlıca təsir edir. Kiçik sahibkarlıq subyektləri hal-hazırda dünyada və ölkəmizdə fəaliyyət növü olaraq geniş yayılmaqda və inkişaf etməkdədir. Dünya ölkələrinin kiçik sahibkarlıq subyektlərinin inkişafına başlıca marağı, bir çox amillərlə xüsusilə müəssisələrin rəqabət mühiti yaratması, istehlak strukturunun genişləndirilməsi, iqtisadiyyatda məşğulluğun artırılması və yeni iş yerlərinin açılmasına təkan verməsi ilə əlaqədardır.

İqtisadiyyatın sağlamlaşdırılmasında kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsi mühüm rol oynayır. Aşağıda onların səciyyəvi xüsusiyyətləri əks olunmuşdur:

– Bazar şəraitini məhsul və xidmətlərlə zənginləşdirir;

– İstehlak məhsullarına olan tələbatın yerli məhsullar hesabına ödənilməsinə şərait yaradır;

– İstehlak sahəsinin təkmilləşdirilməsinə şərait yaradır;

– İxrac imkanlarını təkmilləşdirir;

– Sağlam rəqabət mühiti formalaşdırır;

– Yeni iş yerlərinin açılmasına imkan yaradır və s.

Ölkəmizdə fəaliyyət göstərən kiçik sahibkarlıq subyektləri dünya ölkələrində olduğu kimi müxtəlif profillər üzrə ixtisaslaşdırılmışdır. Azərbaycan Dövlət

Statistika Komitəsinin rəsmi səhifəsindən əldə etdiyimiz və son olaraq 2020-ci ilin məlumatlarını özündə əks etdirən statistikalar göstərir ki, ölkəmizdə fəaliyyət göstərən ümumi sahibkarlıq subyektlərinin təxminən 97%-i mikro, 2%-i kiçik, 1%-i isə iri sahibkarlıq subyektlərinin payına düşür. Kiçik müəssisələrin fəaliyyəti dedikdə ticarət, xidmət, ictimai iaşə, kənd təsərrüfatı və s. kimi sahələri nəzərdə tutmaq mümkündür.

İstehlak məhsullarının istehsalı və ona olan tələbatla əlaqədar olaraq müvafiq sahələrdə kiçik sahibkarlıq subyektlərinin formalaşmasına ehtiyac yaranır. Kiçik sahibkarlıq subyektləri yerli xammaldan səmərəli istifadə edilməsi, əmtəə və xammala olan ehtiyacın təmin edilməsi və ixrac potensialının artırılmasına kömək edən yardımçı vasitələrdəndir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən əhalinin imkanları, yaradıcılıq qabiliyyəti və səyləri kiçik sahibkarlıq subyektlərinin yaradılmasına təkan verir. Kiçik sahibkarlıq təkcə istehlak sferasında deyil, son məhsulun istehsalı üçün əhəmiyyətli hesab olunan yarımfabrikatların və müəssisələr üçün əlverişli olmayan məhsulların buraxılışında və s. səmərəli hesab olunur. Bütün bunlar, kiçik sahibkarlıq subyektlərinin inkişafına kompleks yanaşmanı və iqtisadi fəaliyyətdə onların yeri və rolunu vacib edir. Aşağıda qeyd olunan xüsusiyyətlər kiçik sahibkarlıq subyektləri üçün xarakterikdir:

- Bazar iqtisadiyyatı şəraitində rəqabət mühitinin formalaşdırılması;
- Məhsul çeşidlərinin artırılması və keyfiyyətinin yüksəldilməsi;
- İqtisadiyyatın strukturunun formalaşması və dəyişməsinə təsir göstərilməsi;
- Əhalinin əmək fəaliyyətinin təkmilləşdirilməsi;
- İstehlak məhsullarına olan tələbatın yerli məhsullar hesabına ödənilməsi;
- Sosial təbəqələr üzrə mülkiyyətçiliyin formalaşdırılması və s.

Kiçik müəssisələrin inkişafında həm iqtisadi, həm də sosial funksiyaların yerinə yetirilməsinə üstünlük verilməsinin bir sıra səbəbləri vardır. Kiçik müəssisələrin iqtisadi funksiyalarından danışarkən biz xüsusilə, işə götürən, vergi ödəyicisi, məhsul və xidmətin istehsalçısı, elmi-texniki tərəqqinin hərəkverici qüvvəsi kimi amilləri qeyd etməliyik.

Kiçik müəssisələrin fəaliyyətində sosial funksiyaları xüsusilə qeyd etmək lazımdır, çünki əhalinin zəif sosial təbəqəsi (əlillər, şikəstlər, təqaüdçülər, qadınlar və s.) yaradıcılıq qabilliyyətini genişləndirmək üçün əmək fəaliyyəti ilə məşğul olurlar. İri müəssisələrlə müqayisədə daha az kapital cəlbi, işçi qüvvəsi və avadanlıqlardan istifadə edilir. Elə bu şərtləri nəzərə alaraq kiçik müəssisələri 2 qrupda təsnifləşdirə bilərik.

**Birinci qrup –** birbaşa və ya dolayı yolla iri müəssisələrlə əlaqəli olan, hüquqi baxımından müstəqil olan müəssisələrdir. İri müəssisələrin tərkibində təcrübəçi və onların yaratdığı yeni məhsullara xidmət göstərən firmalar fəaliyyət göstərirlər.

**İkinci qrup –** həm iri müəssisələr, həm də bir-biriləri ilə rəqabət aparan kiçik müəssisələrdir. Bu qrupa daxil olan müəssisələrin sürətlə inkişaf etmə səbəbi, bazarın tələblərinə cavab verərək güclü rəqiblərin olmasına baxmayaraq dayanıqlı rəqabət muhiti şəraitində sərbəst şəkildə manevr etmə qabiliyyətinin olmasıdır.

Dünya təcrübəsi göstərir ki, kiçik müəssisələrin formalaşması və iqtisadiyyata təsiri ölkələr üzrə müxtəlif göstəriciləri özündə əks etdirir. Qərb ölkərinin iqtisadiyyatında kiçik sahibkarlığın aşağıdakı növləri fərqləndirilir.

**Cədvəl 3: Kiçik müəssisələrin növləri**

| | |
|---|---|
| Kommuntant tipli | Bir qayda olaraq bu tip müəssisələr aralıq fəaliyyətlə məşğul olub məhsulun ayrı-ayrı hissələrinin hazırlanması üzrə ixtisaslaşmışlar. İri müəssisələrlə qarşılıqlı əlaqədə olub onlara köməkçi rolunu oynayır və kəskin rəqabət muhitində formalaşırlar. |
| Patient tipli | Bu tip müəssisələr müstəqil şəkildə fəaliyyət göstərərək iri müəssisələrdən asılı olmurlar. Onlar yerli xammal və material mənbələrinə əsaslanır və son məhsulun buraxılışı üzrə ixtisaslaşırlar. Bu müəssisələrə keyfiyyətli məhsul istehsal edərək rəqabət qabiliyyətinə malik olur və ərzaq, geyim, ayaqqabı və xırda tikinti işlərinin istehsalının həyata keçirilməsinə aid edilirlər. |
| Eksplerent tipli | Xüsusilə riskli və ya innovasiya müəssisələri adlandırılırlar. Əsas fəaliyyət sahələri elmi və konstruktor xidmətlərin təşkili ilə əlaqədardır. |

**Mənbə:** Niftullayev V.M, 2004: s.33-45

Bütün dünya ölkələrində, xüsusilə İnkişaf Etmiş Ölkələrdə (İEÖ) və Avropa İttifaqı (Aİ) ölkələrində kiçik sahibkarlıq subyektləri geniş yayılmışdır və əksər ölkələrdə ümumi müəssisələrin 90%-dən çoxu onların payına düşür. Bu müəssisələr yeni məşğulluq imkanları yaratmaqla, mal və xidmətlər istehsal etməklə iqtisadi inkişafda əsas rol oynayırlar. Bu müəssisələrin inkişaf etdirilməsi şübhəsiz ki, zəruridir, çünki belə inkişaf olmadan ümumi həyat səviyyəsinin yüksəlməsini təsəvvür etmək çətindir.

Ölkəmizdə kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsinə xüsusi diqqət ayrılır. Maliyyə və texniki təminatının kiçik olmasına baxmayaraq, çevik idarəetmə siyasəti nəticəsində rəqabətli və dəyişən bazar iqtisadiyyatı şəraitinə vaxtında və dəqiq uyğunlaşmağa başlamışdır.

Kiçik sahibkarlıq subyektlərinin iri müəssisələrə nisbətən inkişaf etdirilməsinə xüsusi diqqət ayrılmasının bir neçə səbəbləri vardır. Bunlara aşağıdakılar aiddir:

- Elm və texnikanın inkişaf etdiyi bir dövrdə texnoloji tələblərə tez bir zamanda uyğunlaşması;
- İri sahibkarlıq subyektlərinə ixtisaslaşmanın təkmilləşdirilməsində dəstək göstərilməsi;
- İnnovativ inkişafda kəşfiyyatçı xarakter daşıması;
- İnhisarçılıq meyillərinin aradan qaldırılmasında yardımçı rolunu oynaması;
- Daha yüksək sürətlə kapital dövriyyəsinin təmin edilməsi;
- İstehsalın yeni məhsullar vasitəsilə mənimsənilməsinə səy göstərməsi.

"Kiçik sahibkarlıq" iri müəssisələrin təsərrüfat formalarını kəmiyyətcə fərqləndirmək məqsədilə müəyyən edilmiş bir termindir. Kiçik sahibkarlıq subyektlərinin ölkələrin iqtisadiyyatında göstərdiyi təsirlər səbəbindən tədqiqatçılar tərəfindən onların həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinin araşdırılması üçün zərurət yaranmışdır. Kiçik sahibkarlıq subyektlərinin kəmiyyət göstəricilərinə aiddir:

– Kiçik sahibkarlıq subyektlərində çalışan işçilərin sayı;

– Kiçik sahibkarlıq subyektlərinin dövriyyəsinin həcmi;

– Kiçik sahibkarlıq subyektlərinin aktivlərinin dəyəri.

Kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin qiymətləndirilməsi üçün təkcə kəmiyyət göstəricilərinin olması kifayət deyildir. Bu səbəbdən onların keyfiyyət göstəricilərinə də diqqət yetirmək lazımdır. Keyfiyyət göstəricilərinə aiddir:

- "Sağlam" idarəetmə funksiyasının üstünlüyü;
- Məhdud bazar seqmentlərinə malik olması;
- Qeyri-müntəzəm idarəetmə. İdarəetmənin müəssisənin təsisçisinin əlində cəmlənməsi;
- Müəssisənin hüquqi müstəqilliyinin qorunub saxlanılması;
- Müəssisənin nəzarət sisteminin mürəkkəb olmaması və strateji vəziyyətin qiymətləndirilməsi;

Bildiyimiz kimi bütün dünya ölkələrində iqtisadiyyatın davamlı inkişafının təmin edilməsində kiçik sahibkarlıq müəssisələrinin rolu əvəzsizdir. Kiçik sahibkarlıq Avropa Birliyi (AB), Yaponiya, ABŞ və bir çox ölkələrin iqtisadiyyatına başlıca təsir göstərir. Ümumi Daxili Məhsulun (ÜDM) və məşğulluğun təmin edilməsinin təqribən 22 %-dən çoxu məhz bu müəssisələrin payına düşür. Kiçik müəssisələrin sayına görə Şərqi Avropa ölkələrini xüsusilə Estoniya, Çexiya bununla yanaşı İtaliya, Malta, Portuqaliya kimi ölkələri qeyd etmək lazımdır. Bu ölkələrdə çoxlu sayda kiçik müəssisələri fəaliyyət göstərir. Əhalinin işlə təminatının və ÜDM-in həcminin 50%-dən, məşğulluqdakı payının 60%-dən çoxu məhz bu müəssisələr hesabına ödənilir. Xüsusilə, iqtisadi cəhətdən inkişaf etmiş ölkələr üçün məşğulluğun əsas təminatçısı məhz bu tip müəssisələr hesab olunur.

Ölkəmizdə son illərdə sahibkarlıq müəssisələrinin sayını artırmaq, onların formalaşması və inkişafı istiqamətində müvəffəqiyyət əldə etmək məqsədi ilə dövlət tərəfindən sahibkarlara dəstək göstərilir və bəzi islahatlar həyata keçirilir. Bütün bunların nəticəsində, hazırda ÜDM-in həcmində və məşğulluqla təminatda kiçik müəssisələrin payında əhəmiyyətli şəkildə artım müşahidə edilmişdir. Belə ki,

məşğulluqla təminatının təqribən 21%-i, ÜDM-dəki həcminin 27%-i məhz kiçik və orta müəssisələrin payına düşür. Xüsusilə kiçik müəssisələr üçün bu məlumatların faiz göstəriciləri 9-12% aralığında öz əksini tapmışdır. Təəssüf ki, son illərdə ölkəmizdə və dünyada baş verən hadisələr səbəbindən kiçik və orta sahibkarlıq subyektlərinin sayında və fəaliyyətində əhəmiyyətli inkişafa rast gəlinməmişdir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi səhifəsində qeyd olunmuş məlumatlara əsasən, ölkəmizdə fəaliyyət göstərən kiçik sahibkarlıq subyektlərinin böyük hissəsi, təxminən 67,5 %-i paytaxt Bakı şəhərində, 8,1%-i Aran və 6,2%-i isə digər böyük Abşeron iqtisadi rayonumuzun payına düşür.

Aşağıdakı cədvəldə, son illərdə ölkəmizdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı qeyd edilmişdir. Müqayisəli şəkildə 2018-2020-ci illər üzrə qeyd edilmiş məlumatlarda müəssisələrin artım xüsusiyyətləri xüsusilə nəzərə çarpır.

**Cədvəl 4: Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı**

| Sahibkarlıq subyektlərinin sayı | | Sahibkarlıq subyektlərinin ümumi sayı | Mikro sahibkarlıq subyektlərinin sayı | Kiçik sahibkarlıq subyektlərinin sayı | Orta sahibkarlıq subyektlərinin sayı |
|---|---|---|---|---|---|
| 2018 | **Cəmi** | **244883** | **237815** | **4930** | **2138** |
| | Hüquqi şəxslər | 26389 | 19321 | 4930 | 2138 |
| | Fiziki şəxslər | 218494 | 218494 | 0 | 0 |
| 2019 | **Cəmi** | **271304** | **262622** | **5956** | **2726** |
| | Hüquqi şəxslər | 31196 | 22514 | 5956 | 2726 |
| | Fiziki şəxslər | 240108 | 240108 | 0 | 0 |
| 2020 | **Cəmi** | **316370** | **307717** | **5943** | **2710** |
| | Hüquqi şəxslər | 33450 | 24797 | 5943 | 2710 |
| | Fiziki şəxslər | 282920 | 282920 | 0 | 0 |

**Mənbə:** https://www.stat.gov.az/source/entrepreneurship/

Cədvəl 4-də Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi səhifəsindən əldə edilmiş məlumatlar əks olunmuşdur. Qeyd edilən məlumatlar 2018-2020-ci illər ərzində sahibkarlıq subyektlərinin (mikro, kiçik, orta) sayında əldə edilmiş

dəyişikliklərlə əlaqədardır. 2018-2019-cu illər ilə müqayisədə 2020-ci ildə sahibkarlıq subyektlərinin ümumi sayında artım daha çox müşahidə edilmişdir.

Kiçik sahibkarlıq subyektlərinin sayının artması ölkədə sahibkarlığın inkişafı ilə əlaqədar tədbir və islahatların həyata keçirilməsi, istehsal sahəsində idarəetmə və texnoloji strukturun yenidən formalaşması ilə birbaşa əlaqəlidir. Qeyd edilənlər kiçik sahibkarlıq subyektlərinin inkişafını sürətləndirir və istehsala əlavə işçi qüvvəsini cəlb edir.

Kiçik sahibkarlıq subyektlərinin səmərəli şəkildə fəaliyyətinin təmin edilməsi üçün aşağıda qeyd olunmuş xüsusiyyətlərin təmin edilməsi mühüm hesab olunur:

1) Məsafə baxımından yerli bazara yaxınlıq;
2) Xırda partiyalarla (iri müəssisələr üçün əlverişsiz) məhsul istehsalı;
3) İstehlakçıların tələbatına yüksək səviyyədə uyğunlaşma;
4) Paralel səviyyədə idarəetmənin ixtisarı və s.

**Cədvəl 5: Azərbaycanda kiçik sahibkarlığın 2018-2020-ci illər üzrə göstəriciləri**

| İllər | Sahibkarlıq subyektləri | Yeni yaradılmış sahibkarlıq subyektlərinin ümumi sayı | Ləğv edilmiş sahibkarlıq subyektlərinin ümumi sayı |
|---|---|---|---|
| 2018 | **Cəmi** | **83346** | **28505** |
| | Mikro | 83071 | 28452 |
| | Kiçik | 233 | 42 |
| | Orta | 42 | 11 |
| 2019 | **Cəmi** | **103949** | **30483** |
| | Mikro | 103756 | 30457 |
| | Kiçik | 161 | 17 |
| | Orta | 32 | 9 |
| 2020 | **Cəmi** | **167475** | **22572** |
| | Mikro | 167271 | 22545 |
| | Kiçik | 161 | 19 |
| | Orta | 43 | 8 |

**Mənbə:** https://www.stat.gov.az/source/entrepreneurship/

Cədvəl 5-də Azərbaycan Dövlət Statistika komitəsinin rəsmi səhifəsindən əldə etdiyimiz məlumatlara əsasən, ölkəmizdə yeni yaradılmış və ləğv edilmiş sahibkarlıq subyektlərinin sayı qeyd olunmuşdur. Cədvəldən də, göründüyü kimi

2018-2020-ci illər ərzində ümumilikdə yaradılmış müəssisələr nə qədər üstünlük təşkil etsə də, eyni zamanda ləğv edilmiş müəssisələr heç də az deyildir. Belə ki, bu müəssisələrin ləğv edilmə səbəbləri müxtəlif ola bilər, lakin sahibkarlar tərəfindən biznesin dayanıqlılığı və davamlılığı, istehlak tələbi, sahibkarlığın maliyyə təminatı və digər məqamlar xüsusilə diqqət mərkəzində saxlanılmalıdır.

Ölkədə qeyri-neft sektorunun payını artırmaq, yeni iş yerləri açmaq, əhalinin məşğulluğunu təmin etmək, istehlak mallarına olan tələbatı yerli məhsullar hesabına təmin etmək və s. məqsədi ilə sahibkarlığın inkişafına xüsusi diqqət yetirilir. Cədvəldən də, göründüyü üzrə hər üç il üzrə xüsusilə mikro və kiçik sahibkarlıq subyektlərinin sayı orta sahibkarlıq subyektlərinə nisbətən üstünlük təşkil edir. Bunu əsasən onunla əlaqələndirmək olar ki, iri və orta miqyaslı müəssisələrin fəaliyyəti üçün daha çox kapial cəlbi, işçi qüvvəsi, maliyyə vəsaiti və digər çoxsahəli vəsaitlər tələb olunur, lakin, kiçik müəssisələr daha az vəsait sərf etməklə də fəaliyyət göstərə bilirlər.

Cədvələ əsasən, həmçinin qeyd etmək lazımdır ki, ümumi olaraq sahibkarlıq subyektlərinin sayında 10%, mikro sahibkarlıq subyektlərinin sayında 10%, kiçik sahibkarlıq subyektlərinin sayında 20%, orta sahibkarlıq subyektlərinin sayında isə 27% artım müşahidə edilmişdir. Əlavə olaraq bildirmək lazımdır ki, mikro sahibkarlıq subyektlərinin böyük əksəriyyətini fiziki şəxslər təşkil etsə də, kiçik və orta sahibkarlıq subyektlərində əksi yəni, hüquqi şəxslərin üstünlüyü müşahidə edilir.

Araşdırma nəticəsində əldə edilən məlumatlara əsasən deyə bilərik ki, müasir şəraitdə sahibkarlığın fərdi və özəl sahələrinə ayrılmış xüsusi diqqət səbəbilə daha çox tərəqqi əldə edilmişdir. Belə ki, kiçik sahibkarlıq subyektlərinin iqtisadiyyatın müxtəlif sahələrində inkişaf etdirilməsi səbəbilə, ölkəmizdə əhalinin məşğulluqla təminatının artmasına və işsizlik səviyyəsinin aşağı düşməsinə nail olunmuşdur. Bu göstəricilər ölkəmizdə bazar iqtisadiyyatı şəraitində istehsal və texnoloji baxımından yaxşı formalaşmış müəssisələrin rəqabətədayanıqlılığını, digər müəssisələrin isə tədricən sıradan çıxdığını özündə əks etdirmişdir.

# II FƏSİL. BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ KİÇİK SAHİBKARLIQ SUBYEKTLƏRİNİN İNKİŞAFI VƏ DÖVLƏTİN MALİYYƏ DƏSTƏYİNİN ƏHƏMİYYƏTİ

## 2.1. Kiçik sahibkarlığa dövlət dəstəyinin normativ-hüquqi bazası

Kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi bütün dünya ölkələrində diqqət mərkəzində dayanan və iqtisadiyyatın inkişafında başlıca rol oynayan əsas məsələlərdəndir. Xüsusilə, inkişaf etmiş ölkələrin iqtisadiyyatına nəzər yetirdikdə, bu müəssisələrin həm sayının, həm də fəaliyyət sahələrinin geniş olduğunu görə bilərik. Hazırda elə ölkəmizdə də, kiçik müəssisələrin fəaliyyətinin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədi ilə dövlət tərəfindən xüsusi tədbirlər həyata keçirilir.

1992-ci il 15 dekabr tarixində qəbul edilmiş “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunun 2-ci Maddəsinə əsasən sahibkarlığın normativ-hüquqi bazası Azərbaycan Respublikası Konstitusiyası, Azərbaycan Respublikası Vergi Məcəlləsi, Azərbaycan Respublikası Mülkü Məcəlləsi, Azərbaycan Respublikası Prezidentinin imzaladığı fərman və sərəncamlar və digər qanunvericiliklə qəbul edilmiş sənədlər əsasında tənzimlənir.

Azərbaycan Respublikası Konstitusiyasına diqqət yetirdikdə sahibkarlıq fəaliyyəti ilə əlaqədar bir neçə maddəyə rast gəlindiyini və həmin maddələrin sahibkarlıqla dolayı və ya birbaşa əlaqəli olduğunu müşahidə edə bilərik. Aşağıda onlardan bir neçəsi barədə məlumat verilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 59-cu maddəsinə əsasən hər kəs təkbaşına və ya başqa şəxslərlə birgə əmlakından, qabiliyyətindən və imkanlarından istifadə edərək azad sahibkarlıqla və ya qanunla qadağan edilməmiş fəaliyyət sahələri ilə məşğul ola bilər. Konstitusiyanın 29-cu maddəsində qeyd edildiyi kimi, hərkəsin mülkiyyət hüququ vardır və mülkiyyət qanunla qorunur. Həmçinin, Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinə əsasən ölkəmizdə mülkiyyətin toxunulmaz və dövlət tərəfindən qorunduğu da qeyd olunmuşdur.

**Mənbə:** https://e-qanun.az/framework/897

Azərbaycan Respublikası Konstitusiyasının “Vətəndaşların əsas vəzifələri adlı” IV fəslinin 73-cü maddəsində qeyd olunmuşdur ki, vergiləri və digər dövlət ödənişlərini tam və vaxtında ödəmək hərkəsin borcudur və qanunla nəzərdə tutulmuş həcmdən əlavə və əsası olmadan heç bir əlavə ödəniş tələb edilə bilməz. Sahibkarlar da fəaliyyət sahəsinə uyğun şəkildə dövlətə vergi və digər dövlət ödənişlərini həyata keçirdiyindən maddənin sahibkarlıq fəaliyyəti ilə birbaşa əlaqəsi vardır.

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 7 yanvar tarixli “Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında” Fərmanına əsasən, dövlət orqanları tərəfindən yol verilən sui-istifadə hallarının aşkarlanması, fiziki və hüquqi şəxslərin hüquq və mənafelərinin qorunması, ardıcıl və lüzumsuz şəkildə edilən yoxlamaların azaldılması, nəzarət tədbirlərinin həddən artıq tətbiq edilməsinin və iqtisadiyyata mənfi təsir göstərən halların qarşısının alınması fərmanın əsas təsir dairəsində dayanan məsələlərdəndir.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin, 28 sentyabr 2002-ci il tarixli, “Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında” Fərmanına əsasən, yoxlamaların və bürokratik əngəllərin aradan qaldırılmasına yönəlmiş qərarlar qəbul edilmişdir.

Ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi və onlara dövlətin dəstəyi daim diqqətdə saxlanılır. Bu sahələrin inkişaf etdirilməsi üçün Azərbaycanda kifayət qədər xammal və işçi qüvvəsi mövcuddur. Regionlarda yeni iş yerlərinin açılması və işsizliyin ləğvi, əhalinin yoxsulluğunun azaldılması bir sözlə, sosial-iqtisadi həyatı canlandırmaq məqsədi ilə bir sıra islahatlar və tədbirlər həyata keçirilir. Həmçinin, Azərbaycan Respublikası Prezidenti çıxışlarında dəfələrlə sahibkarlığın inkişafına mane olan suni maneələrin aradan qaldırılması, inhisarçılıq meyillərindən qaçınılması, özəl sektorun inkişafına mane olan problemlərin həlli və s. barədə məsələlərə toxunmuşdur. Bu səbəblə, qeyd edilən və digər müşahidə olunan mənfi halların qarşısını almaq məqsədilə 2007-ci il 30 aprel tarixində "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqınd a" Fərmanı imzalanmışdır.

2009-2013-cü illər və 2014-2018-ci illərdə sahibkarlara həm maddi, həm də siyasi dəstəyin göstərildiyini özündə əks etdirən “Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı” barədə Dövlət Proqramı təsdiqlənmişdir. Proqram çərçivəsində ölkəmizin bütün iqtisadi rayonlarında tədbirlər həyata keçirilmişdir. Proqramın başlıca məqsədi qeyri-neft sektorunun inkişafını gücləndirmək, infrastrukturu yeniləmək, müasir tipli müəssisələr yaratmaq, aqrar sektorun inkişafı məqsədilə islahatlar həyata keçirmək, təbii resurslardan səmərəli istifadə etmək, yoxsulluğu azaltmaq və digər bu kimi amillərdən ibarətdir.

Kiçik sahibkarlıq subyektlərinə dövlət köməyinin göstərilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin imzaladığı “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Fərmanına diqqət yetirmək lazımdır. Bu qanunvericilik norması “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanunundan, Azərbaycan Respublikası Konstitusiyasından və digər normativ-hüquqi aktlardan formalaşmışdır. “Sahibkarlıq fəaliyyəti haqqında” Qanuna əsasən kiçik sahibkarlıq subyektləri ölkəmizdə həm kiçik, həm də mikro sahibkarlıq subyektlərini özündə cəmləşdirir. Kiçik sahibkarlıq subyektləri hüquqi şəxs yaratmaqla (icra hakimiyyəti orqanları tərəfindən) və hüquqi şəxs yaratmadan (vergi qanunvericiliyi əsasında) qeydiyyata alınır. Bu qanunun 6-cı maddəsində kiçik sahibkarlıq subyektlərinə dövlət köməyinin istiqamətləri qeyd olunmuşdur. Aşağıda proqramın əsas xüsusiyyətləti əks olunmuşdur:

- Kiçik sahibkarlıq subyektlərində infrastrukturun formalaşması;
- Kiçik sahibkarlığa kömək məqsədilə proqramların hazırlanması və tətbiqi;
- Kiçik sahibkarlıq subyektlərinin elmi-texniki və maddi təminatı üçün şərait yaradılması;
- Kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi məqsədilə ixtisaslı kadrların hazırlanması;
- Kiçik sahibkarlığa kömək məqsədilə xarici-iqtisadi əlaqələrin genişləndirilməsi;

– Kiçik sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulların qeydiyyatı, statistik və maliyyə hesabatı göstəricilərin sadələşdirilmiş formada təqdim edilməsinə şərait yaradılması

Qanunun 7 və 8-ci maddələrində kiçik sahibkarlığa kömək tədbirlərinin icra hakimiyyəti orqanları tərəfindən həyata keçirildiyi qeyd edilmişdir. Bu kömək proqramlarının əsas maliyyə mənbələri dövlət və yerli büdcələr, həmçinin qanunla nəzərdə tutulmuş digər büdcələr hesabına formalaşır. Kiçik sahibkarlıq subyektlərinə yardım proqramları çərçivəsində kiçik sahibkarlıq subyektləri üçün infrastruktur yaradılması, sosial cəhətdən zəif olan əhali qruplarının sahibkarlıq subyektlərində fəaliyyətinin genişləndirilməsi, kiçik sahibkarlıq subyektlərində istehsal sahələrinin artırılması məqsədi ilə dövlət himayədarlığının göstərilməsi və s. kimi əsas xüsusiyyətlər əks olunur. Bununla yanaşı, kiçik sahibkarlıq subyektlərinə dövlət yardımından danışarkən biz subsidiyalar, güzəştli kreditlər, lizinq, kompensasiyalar və s. formada sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına zəmin yaradan tədbirlər planını nəzərdə saxlamalıyıq.

Qanunun 10-cu maddəsində qeyd edilənlərə əsasən, kiçik sahibkarlıq subyektləri üçün iqtisadi və hüquqi xidmətlər göstərmək, xarici və ya dövlət təşkilatları ilə əməkdaşlıq etmək məqsədilə mülkiyyət formasından asılı olmayaraq təşkilat və ya müəssisələr yaradılması ilə bağlı dövlət yardımı, eyni zamanda maliyyə-kommersiya xidmətləri nəzərdə tutulmuşdur.

Qanunun 11 və 12-ci maddələrində isə, kiçik sahibkarlıq subyektləri üçün ixtisaslı kadrların hazırlanmasına və onların iqtisadi, hüquqi və texnoloji informasiya ehtiyatları ilə təmin edilməsinəköməklik göstərilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin 2015-ci il 20 oktyabr tarixli, 1410 №-li qərarına əsasən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü

maddəsinin birinci hissəsinin birinci bəndinə əsasən sahibkarlıq fəaliyyətinin inkişafının motivasiya edilməsi məqsədi ilə qərara alınmışdır.

Qanunun 1-ci maddəsində qeyd edilir ki, bu qərara əsasən 2022-ci il yanvar ayının 1-ə qədər ölkə ərazisində sahibkarlıqla əlaqədar aparılan yoxlamalar dayandırılmışdır. Qanunun 2-ci maddəsində qeyd edilmişdir ki, vergi yoxlamaları, gömrük auditi, müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən yoxlamalar məhdudiyyətlər nəzərə alınmaqla edilə bilər. Qanunun 3-cü maddəsində də qeyd edildiyi kimi bu yoxlamaların heç bir hüquqi əsası yoxdur və sahibkarlar əks halda proseslə əlaqədar şikayət edə bilərlər. Onu da qeyd etmək lazımdır ki, korrupsiya cinayətləri ilə əlaqədar olaraq tətbiq edilə biləcək yoxlamalar isə istisna hesab edilir və nəzərdə tutulan yoxlamalar sırasına daxil deyildir.

Kiçik və orta sahibkarlara dəstək göstərmək məqsədilə, 2017-ci il 28 dekabr tarixində, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tərkibində Dövlət başçısının Fərmanına əsasən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılmışdır. Fəaliyyətə başladığı gündən etibarən kiçik sahibkarlıq subyektlərinin sayının artırılması, onların maraqlarının müdafiəsi, özəl və dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi kimi istiqamətlərdə çalışır. Sahibkarlara dəstək və operativ xidmət göstərmək məqsədi ilə "KOB Dostu" konsepsiyası yaradılmışdır. Bu mexanizimin işləmə prinsipinə əsasən, bu agentlikdə olan məsul şəxslər tərəfindən sahəvi görüşlər təşkil etməyə, sahibkarlarla mütəmadi danışıqlar aparmağa, onların problemlərini həll etməyə və köməklik göstərməyə çalışırlar. Hazırda ölkəmizdə, Abşeron, Sumqayıt, Şəki, Füzuli və Qəbələ kimi şəhərlərimizdə "KOB Dostları" fəaliyyət göstərir və onların sayı günü-gündən artmaqdadır.

Bildiyimiz kimi, ölkəmizdə və dünyada davam edən pandemiya şəraitindən əziyyət çəkən sahələrdən biri də sahibkarlıq olmuşdur. Ölkəmizdə sahibkarlara dəstək göstərmək məqsədi ilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 19 mart 2020-ci il tarixli "Covid-19 pandemiyasından zərərçəkmiş sahibkarlara dövlət dəstəyinin göstərilməsi haqqında" Sərəncam imzalanmışdır. Sərəncamda virusun qlobal miqyasda əhatə dairəsinin genişlənməsi səbəbindən gələcəkdə göstərə biləcək mənfi təsirlərin (makroiqtisadi sabitlik, məşğulluq təminatı, sahibkarlıq fəaliyyəti və

s.) qarşısını almaq məqsədi ilə qərarlar qəbul edilmişdir. Bu səbəbdən Azərbaycan Respublikası Nazirlər Kabinetinə 2020-ci ildə 1 milyard manat vəsait köçürülmüşdür. Pandemiyadan zərər çəkmiş şəxslərin sayını müəyyənləşdirmək, biznesə göstərdiyi mənfi təsirləri aradan qaldırmaq, sahibkarlara dövlətin göstərə biləcəyi dəstəklə əlaqədar təkliflər hazırlamaq və s. fəaliyyət sahələrini təmin etmək məqsədi ilə müəyyən işçi qrupu yaradılmışdır. Bu işçi qrupları vasitəsi ilə toplanan məlumatlar Nazirlər Kabineti tərəfindən ümumiləşdirilərək Azərbaycan Respublikası Prezidentinə təqdim edilmişdir. Bununla əlaqədar olaraq, Sərəncamın 10.2-ci bəndinə əsasən Nazirlər Kabineti tərəfindən Tədbirlər Planı təsdiq edilmişdir. Bu Tədbirlər Planının həyata keçirilməsi 3 mərhələni əhatə edir:

Sahibkarlığa və iqtisadi artıma dəstək göstərilməsi - İqtisadi və sosial sabitliyin əldə edilməsi məqsədilə sahibkarlığa və iqtisadiyyata dövlət tərəfindən güzəştli şərtlərlə kreditlərin ayrılması, iş yerlərində sabitliyin qorunması, vergi güzəştlərinin tətbiq edilməsi, pandemiyanın mənfi təsir göstərdiyi sahələrdə əlavə dəstək tədbirlərinin həyata keçirilməsi kimi xüsusiyyətləri özündə əks etdirir.

Sosial rifaha və məşğulluğa dəstək göstərilməsi - Dövlət və qeyri-dövlət sektoru üzrə çalışan işçilərin işsizlik riskindən sosial müdafiə olunması və qorunması, əhalinin sosial cəhətdən həssas olan təbəqəsinin və işsizlərin məşğulluğunun sosial müdafiəsi kimi əlamətləri özündə birləşdirmişdir.

Makroiqtisadi və maliyyə sabitliyinə nail olmaq – Pandemiyadan zərərçəkmiş sahələrdə sahibkarlıq subyektlərinə vergi güzəşt, imtiyaz və azadolmaların tətbiqi, lisenziya və icazələrin sadələşdirilməsi, dövlət tərəfindən maddi dəstəyin göstərilməsi və s. kimi tədbirləri əhatə etmişdir.

Qeyd edilənlərlə yanaşı, Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin 4 iyun 2020-ci il tarixli Fərmanın icrası məqsədilə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin *“Koronavirus pandemiyasının ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması üçün sahibkarlıq subyektlərinin kreditlərinə dövlət dəstəyinin verilməsi ilə bağlı bir sıra tədbirlər barədə”* Qərarına əsasən aşağıda qeyd olunanların koronavirus pandemiyasından zərərçəkmiş sahibkarlar üçün tətbiqi nəzərdə tutulmuşdur:

1. Kredit faizlərinin subsidiyalaşdırılması və sahibkarlar üçün nəzərdə tutulan bank kreditlərinə dövlət zəmanətinin verilməsi;

2. Mövcud kredit portfeli üzrə kredit faizlərinin subsidiyalaşdırılması;

3. Sahibkarlara veriləcək 300 000 000 manat məbləğində kreditlərə dövlət zəmanətinin verilməsi;

Sahibkarlıq fəaliyyəti və sahibkarlığa dəstək məqsədi ilə qeyd edilən qanunlarla yanaşı, hüquqi münasibətlərin tənzimlənməsində “Xüsusi iqtisadi zonalar haqqında”, “İnvestisiya fəaliyyəti haqqında”, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında”, “Reklam haqqında” və s. kimi digər qanunlar xüsusi əhəmiyyət kəsb edir.

Ölkəmizdə sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi məqsədi ilə Dövlət başçımız tərəfindən bir sıra fərmanlar imzalansa və qərarlar qəbul edilsə də, bu sahədə mövcud olan problemlər hələ də, tam həllini tapmamışdır. Belə ki, vergi, gömrük, icra hakimiyyətləri, hüquq-mühafizə, sanitar-epidomoloji və s. kimi dövlət orqanları tərəfindən dəfələrlərlə həyata keçirilən yoxlamalar və fəaliyyətinə edilən müdaxilələr onların işinə maneəçilik yaradır. Normal olaraq, bu da sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin narazılığına və potensialını kifayət qədər əks etdirməməsinə səbəb olur.

## 2.2. Kiçik sahibkarlıq subyektlərinin inkişaf mərhələləri və müasir vəziyyəti

Ölkəmizdə sahibkarlığın, xüsusilə kiçik sahibkarlığın inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətinin başlıca şərtlərindən hesab olunur. Müasir dövrdə ölkəmizdə qeyri-neft sektorunun payını artırmaq, neft və neft məhsullarından istifadəni azaltmaq və iqtisadiyyatın inkişafında sahibkarlıq subyektlərinin rolunu artırmaq məqsədi ilə bir sıra tədbirlər həyata keçirilmişdir. Dövlət-sahibkar münasibətlərini təkmilləşdirmək məqsədilə, inzibatı prosedurları, tənzimləmə sistemini və biznes mühiti ilə əlaqədar qanunvericiliyi təkmilləşdirmək, regionlarda sahibkarlıq fəaliyyətini artırmaq, sahibkarlığın inkişaf etdirilməsi məqsədilə təşviqedici tədbirlər həyata keçirilmişdir.

Bildiyimiz kimi, qədim tarixə əsaslanan sahibkarlıq fəaliyyəti böyük inkişaf yolu keçərək hazırki mərhələyə qədər gəlib çıxmışdır. XIX əsrdə neft ölkəsi kimi tanınan Azərbaycanda sahibkarlıq fəaliyyətinin formalaşması ölkəyə kapital axının artmasına səbəb olmuşdur. Həmin dövrdə dünya üzrə neft hasilatının yarıdan çoxuna sahib olan ölkəmiz bir sıra xarici investorların diqqətini cəlb etmiş, neft sənayəsinin inkişafı kənd təsərrüfatı, nəqliyyat, ticarət və digər sahələrin də inkişafına təkan vermişdir.

XIX əsrin sonu XX əsrin əvvəllərində idxal-ixrac əməliyyatlarının artması ilə kənd təsərrüfatı məhsullarının istehsalına xüsusi diqqət göstərilmişdir. Həmin dövrdə, kənd təsərrüfatı sektorunda pambıqçılıq, ipəkçilik, biyan kökü emalı, balıqçılıq, üzümçülük və şərabçılıq və s. kimi təsərrüfat sahələri xüsusilə mühüm yer tuturdu. Əldə edilən məhsullar Rusiya, Orta Asiya və İranın bir çox şəhərlərinə ixrac edilirdi. Azərbaycanda sahibkarlığın inkişafı şərti olaraq 4 mühüm mərhələyə bölünmüşdür:

***1993-cü ilə qədər:*** Bu mərhələdə, ölkəmizin yeni müstəqillik əldə etdiyi bir dövrdə sahibkarlıq subyektlərinin fəaliyyətinin inkişafına mane olan qüvvələr mövcud vəziyyət ilə əlaqədar həm nəzəri, həm də praktiki formada özünü aşkar şəkildə əks etdirirdi. Ölkənin iqtisadi inkişafı və sərhədlərində nəzərə çarpan ləngimələr, dövlət mülkiyyətinin inhisarı şəraiti, ölkənin yeni valyutaya keçid edə bilməməsi və s. kimi bir sıra obyektiv və subyektiv səbəblər sahibkarlıq fəaliyyətinin inkişafının qarşısını alırdı. İnkişaf səviyyəsinin aşağı həddə olması, ölkənin maliyyə təminatında müşahidə edilən zəiflik və istehsal sahələrində davam edən qeyri-sabitlik sahibkarlığın inkişafında göstəricilərin aşağı düşməsinə səbəb olurdu.

***1993-2002-ci illər:*** Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrdən etibarən ölkədə makroiqtisadi stabilliyin bərqərar olması üçün bir sıra tədbirlər planı həyata keçirilmişdir. Sahibkarlığın inkişafı üçün tətbiq edilən islahatlar nəticəsində ölkəmizdə sosial-iqtisadi inkişafda nailiyyətlər əldə edilmişdir. Kiçik sahibkarlıq subyektlərinin inkişafına kömək məqsədilə 2002-ci ildən bəri bir sıra fərman və sərəncamlar imzalanmışdır. Bu sənədlərin imzalanmasında başlıca məqsəd, sahibkarlığın inkişafına dəstək göstərmək, sahibkarlığı dövlət himayəsinə

almaq, sahibkarlıq subyektlərinin inkişafına maneə yaradan amilləri aradan qaldırmaq idi. Qeyd edilənləri icra etmək məqsədilə, sahibkarlara uzunmüddətli və güzəştli kreditlərin verilməsi, sahə və regionlar üzrə vergi güzəştlərinin tətbiq edilməsi, inhisarçılıq meyillərinin azaldıması, biznes mühitinin yaxşılaşdırılması məqsədilə lisenziya və icazələrin verilməsi qaydasının sadələşdirilməsi kimi prosesləri vurğulamaq lazımdır.

Beləliklə, ölkə prezidentinin 24 iyun 1997-ci il tarixli, 610 nömrəli "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması" və 17 avqust 2002-ci il tarixli, 743 nömrəli "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı" haqqında fərmanına əsasən sahibkarlığa dövlət köməyi proqramı təsdiq edilmiş və dövlət büdcəsindən həmin proqramların tətbiq edilməsi üçün müvafiq vəsaitlərin ayrılmasının təmin edilməsi qərara alınmışdır. Həmçinin, neft sənayəsi ölkəsi olaraq neft sektorundan qazanılmış gəlirlər hesabına qeyri-neft sektorunun inkişafına və xüsusilə dünya bazarına çıxa biləcək məhsulların inkişafına xüsusi diqqət ayrılmışdır. Bununla yanaşı sahibkarlığa dəstək məqsədi ilə, bəzi kiçik sahibkarlar üçün vahid vergi siyasəti tətbiq edilməyə başlanmış, əlavə dəyər vergisi və mənfəət vergisi dərəcələri aşağı salınmış və məcburi sığorta haqqı azaldılmışdır. Belə ki, bu tədbirlər hesabına ölkəyə xarici investisiya axınında və sahibkarlıq subyektlərinin sayında artım müşahidə edilmişdir.

***2002-2015-ci illər:*** Azərbaycan Respublikasının Ümummili Lideri Heydər Əliyevin sahibkarlığın inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər nəticəsində ölkəmizdə sahibkarlıq subyektlərinin fəaliyyətində xüsusi artım müşahidə edilmişdir. Həmçinin bu illər ərzində Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən də, bu siyasət davam etdirilmiş və 2007-ci il 6 mart tarixli, "Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması, 2008-ci il 25 avqust, 3004 nömrəli və 15 sentyabr, 3043 nömrəli sərəncamlarına əsasən "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair" Dövlət Proqramı təsdiq edilmişdir. İqtisadiyyatın inkişaf etdiyi bir dövrdə, başlıca vacib məsələlərdən biri hesab olunan təhsil səviyyəsinin artırılması məqsədi ilə, xüsusilə kadr potensialının artırılması və insan kapitalına olan tələbatın təmin

edilməsi məqsədi ilə 16 aprel 2007-ci il tarixli, 2090 nömrəli (2007-2015-ci illər) Sərəncamına əsasən "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili" ilə əlaqədar Dövlət Proqramı təsdiq edilmişdir. Ümumilikdə, sahibkarlığın inkişaf etdirilməsi nəticəsində regionlarda əhalinin məşğulluqla təminatında artım müşahidə edilmiş aqrar, turizm, sənayə və s. sahələrdə çalışan kadrlar hesabına sahibkarlıq təşəkkül tapmış və inkişaf etmişdir.

***2015-ci ildən sonra:*** Bu mərhələdən etibarən ölkəmizdə sahibkarlıq subyektlərinin aktiv fəaliyyətini aydın şəkildə görmək mümkün idi. Belə ki, 2015-ci ildən etibarən istehsal sahələrinin subsidiyalar hesabına dəstəklənməsi, dövlət rüsumlarının məbləğinin azaldılması, lisenziya və icazələrin tətbiq edilməsi ilə bağlı prosedurların sadələşdirilməsi, qeyri-neft sektorunun inkişafı məqsədi ilə həyata keçirilən islahatlar, sahibkarlıq sahəsində həyata keçirilən yoxlamaların dayandırılması, sənayə və ya texnologiya məhəllələri və parklarının salınması, Strateji Yol Xəritələri və s. kimi tədbirlərin həyata keçirilməsi sahibkarlığın inkişafında xüsusi rol oynayırdı.

Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin 26 dekabr 2014-cü ildə imzaladığı 964 nömrəli Sərəncamına əsasən 2015-2020-ci illər üzrə "Azərbaycan Respublikasında Sənayenin inkişafına dair" təsdiqlənmiş Dövlət Proqramına nəzər yetirdikdə, sahibkarlığın hüquq və mənafelərinin qorunması istiqamətində müsbət meyillərin artdığını, biznes mühitinin daha da yaxşılaşdırıldığını müşahidə edə bilərik. Bununla yanaşı, cəmiyyətdə sahibkarlığa dəstək əhval-ruhiyyəsinin yüksəldilməsi, ölkədə əhalinin məşğulluqla təminatında və biznes mühitində sahibkarlığın rolunun artırılması məqsədi ilə Ölkə Prezidentinin 21 aprel 2016-cı il, 1988 nömrəli Sərəncamına əsasən 25 aprel tarixi "Sahibkarlıq Günü" kimi təsis edilmişdir.

Azərbaycan Respublikası ərazisində biznes mühitinin daha da yaxşılaşdırılması məqsədi ilə dövlət xidmətlərinin rolunun artırılması ilə elektron hökümət portalı yaradılmış, infrastruktur və maliyyə dəstəyi həmçinin informasiya texnologiyaları ilə təminatına xüsusi diqqət ayrılmışdır.

**Cədvəl 6: Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən kiçik sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəriciləri**

| Göstəricilər | Yaradılmış əlavə dəyər (mln manat) | İşçilərin sayı (min nəfər) | Orta aylıq nominal əmək haqqı (manat) | Əsas kapitala investisiyalar (mln manat) |
|---|---|---|---|---|
| **2018** | 1235,5 | 76,1 | 373,5 | 1046,7 |
| **2019** | 1423,2 | 85,1 | 437 | 494,2 |
| **2020** | 1617,9 | 92,1 | 533,8 | 380,4 |

**Mənbə:** https://www.stat.gov.az/source/entrepreneurship/

Cədvəl 6-da kiçik sahibkarlıq subyektlərinin 3 il ərzində dəyişən göstəriciləri əks etdirilmişdir. Belə ki, 2020-ci ildə kiçik sahibkarlıq subyektlərinin əlavə dəyərdə payı 2018 və 2019-cu illər üzrə göstəricilərə nisbətən üstünlük təşkil etmiş və təqribən 15%-ə qədər illər üzrə artım müşahidə edilmişdir. Kiçik sahibkarlıq subyektlərinin fəaliyyət sahəsinin genişləndirilməsində başlıca məqsəd ölkədə iqtisadi fəallığın artırılmasına bununla yanaşı, əmək bazarında hökm sürən gərginliyin azaldılmasına dəstək göstərməkdir.

Bildiyimiz kimi, ölkə iqtisadiyyatında qeyri-neft sektorunun payını artırmaq məqsədi ilə sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsi və inkişafına xüsusi diqqət ayrılır. Yeni sahibkarlıq subyektlərinin yaradılması, mövcud sahibkarlıq subyektlərinin genişləndirilməsi və rəqabətli bazar mühiti həm fəal işçi qüvvəsinin, həm də əmək haqqının artımına səbəb olur. Belə ki, 2020-ci ildə işçilərin sayına nəzər yetirdikdə, bu göstərici 92100 nəfər təşkil edirdisə, 2019-cu ildə bu göstərici 85100 nəfər və 2018-ci ildə isə 76100 nəfər təşkil edir. Belə ki, bu göstəricilərdə 7-10% artım özünü əks etdirmişdir.

2020-ci ildə kiçik sahibkarlıq subyektlərində çalışan əhalinin orta aylıq əmək haqqı göstəricisinə diqqət yetirdikdə, yenə də, 2018 və 2019-cu illər üzrə əks olunmuş göstəricilərə nisbətən üstünlük təşkil etdiyi açıq şəkildə görünür. Belə ki, 2020-ci ildə orta aylıq əmək haqqı 533,8 manat təşkil etsə də, 2019-cu ildə bu göstərici 437 manat, 2018-ci ildə isə 373,5 manat təşkil edir.

Kiçik sahibkarlıq subyektlərinin maliyyə mənbələrindən əsas kapitala investisiya edilməsi ilə əlaqədar göstəricilərə diqqət yetirdikdə isə, 2020-ci ildə bu

məbləğin digər illərə nisbətən aşağı səviyyədə olduğu və təqribən 70%-ə qədər azalma müşahidə edilmişdir.

**Cədvəl 7: İqtisadi fəaliyyət növləri üzrə sahibkarlıq subyektlərində çalışan işçilərin sayı**

| İqtisadi fəaliyyət növləri | 2018 | | | 2019 | | | 2020 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | mikro | kiçik | orta | Mikro | kiçik | orta | mikro | Kiçik | Orta |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı, və balıqçılıq | 2591 | 3996 | 6561 | 2425 | 3961 | 10363 | 2231 | 4562 | 11382 |
| Sənaye | 3520 | 13202 | 52884 | 5081 | 14538 | 60375 | 4442 | 15901 | 59761 |
| Emal sənayesi | 2807 | 9762 | 28417 | 3950 | 10536 | 32937 | 3327 | 11304 | 32639 |
| Mədənçıxarma sənayesi | 367 | 1110 | 2510 | 386 | 1360 | 2503 | 403 | 1582 | 2548 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 178 | 911 | 11966 | 558 | 859 | 12104 | 501 | 962 | 13022 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 168 | 1419 | 9991 | 187 | 1783 | 12831 | 211 | 2053 | 11552 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 6060 | 13278 | 19702 | 7675 | 18297 | 31956 | 7126 | 19239 | 28982 |
| Tikinti | 3229 | 9971 | 31738 | 3537 | 11280 | 33734 | 3845 | 14425 | 40464 |
| İnformasiya və rabitə | 1403 | 2869 | 9611 | 1616 | 3217 | 10055 | 1910 | 3697 | 9704 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1361 | 4096 | 6463 | 1735 | 3958 | 8114 | 1932 | 3556 | 8462 |
| Nəqliyyat və anbar təsərrüfatı | 1346 | 4684 | 12565 | 1645 | 4758 | 15110 | 2017 | 4865 | 16257 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 2068 | 3930 | 3232 | 2218 | 3491 | 2846 | 2502 | 3990 | 3403 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 2249 | 4015 | 7218 | 1814 | 4725 | 8864 | 2197 | 4776 | 9048 |
| Təhsil | 1840 | 1904 | 4874 | 1720 | 2492 | 5136 | 1875 | 1700 | 5107 |
| Digər | 9347 | 14107 | 17518 | 10767 | 14355 | 20397 | 10773 | 15414 | 23718 |

**Mənbə:** https://www.stat.gov.az/source/entrepreneurship/

Daha öncə qeyd etdiyimiz kimi, ölkəmizdə sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsinin əsas səbəblərindən biri də əhalinin məşğulluq

problemlərinin aradan qaldırılmasıdır. Yuxarıda göstərilən cədvəl 7-də iqtisadi fəaliyyətin növləri üzrə sahibkarlıq subyektlərinin bölgüsü qeyd edilmişdir. Belə ki, cədvələ nəzər yetirdiyimizdə illər üzrə kiçik sahibkarlıq subyektlərinin sayında artım müşahidə edildiyini görə bilərik.

Əldə edilmiş statistik məlumatlara əsasən, kiçik sahibkarlıq subyektləri kənd təsərrüfatının 25%, sənayenin 20%, emal sənayesinin 23%, mədənçıxarma sənayesinin 35%, elektrik enerjisi və su ilə təhcizatın 6-10%, ticarətin 34%, tikintinin 25%, informasiya və rabitənin 24%, turizmin 25%, nəqliyyatın 21% və təhsilin 20% həcmində çalışan işçilərin sayını özündə əks etdirir. Sahibkarlıq subyektlərinin fəaliyyətinin günü-gündən inkişaf etdirilməsi həm müəssisələrin, həm də orada çalışan işçilərin sayının artmasına səbəb olur. Buna baxmayaraq, son illərdə dünyada və ölkəmizdə hələ də davam etmək də olan pandemiya şəraiti ilə əlaqədar müəssisələrin inkişafında və orada çalışan işçilərin sayında mənfi təsirlər özünü əks etdirmişdir.

4 aprel 2020-ci il tarixdə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin tərəfindən Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixdə imzalanmış Sərəncamının 10.2-ci bəndini rəhbər tutaraq Tədbirlər Planı təsdiq edilmişdir. Bu planın tətbiq edilməsinin əsasını post-pandemiya dövründə məşğulluq və sosial rifahın yaxşılaşdırılmasına dəstək, iqtisadi artım və sahibkarlığa dəstək, makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi tutur. Tədbirlər Planının ticarət, tikinti, nəqliyyat, mədən və emal sənayesi, turizm və kənd təsərrüfatı sahələrinin inkişafı üçün nəzərdə tutduğu prioritetlər, dövlət tərəfindən göstərilən dəstəklər və investisiya cəlbi xüsusilə diqqət mərkəzində saxlanılır.

Kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlər sırasına daxil olan elektron hökümət portalının yaradılması ilə ölkəmizdə biznes mühiti daha da yaxşılaşdırılmış, dövlət tərəfindən göstərilən maliyyə, kommunikasiya və texnologiya dəstəklərinin gücləndirilməsinə imkanlar yaradılmışdır.

Ölkə iqtisadiyyatının, xüsusilə kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi üçün geniş imkanlar vardır. Bu səbəbdən, biznes mühitinin

yaxşılaşdırılması, bacarıqlı və ixtisaslı kadrların təmin edilməsi, effektiv maliyyə resurslarının təşkil edilməsi, eyni zamanda kiçik sahibkarlıq subyektlərinin yerli və xarici bazara çıxışının təmin edilməsi böyük əhəmiyyət kəsb edir.

Ölkəmizdə kiçik sahibkarlıq subyektlərinin genişləndirilməsi üçün böyük imkanlar vardır. Bu imkanlardan səmərəli istifadə etmək və müəssisələrin fəaliyyətinin ölkə xaricində tanınması üçün bir sıra tədbirlər həyata keçirilməkdə davam etməlidir. Belə ki, bu müəssisələrin inkişafı üçün dövlət tərəfindən göstərilən yardım proqramlarının tətbiq edilməsinə davam etmək, maliyyə resursları ilə təminatının daha səmərəli şəkildə əldə olunmasına nail olmaq, bu müəssisələri nəinki yerli, hətta xarici bazarda da fəaliyyətinə imkan yaratmaq, bu məqsədlə də ixtisaslı kadrların cəlbinə və elmi-texniki vasitələrdən istifadənin genişləndirilməsinə dəstək olmaq ən vacib məsələlərdən hesab olunur.

Bildiyimiz kimi, hazırda bütün dünyada və ölkəmizdə davam edən pandemiya şəraiti ilə əlaqədar olaraq, ölkələrarası əlaqələrdə ixrac-idxal əməliyyatlarında və s. bəzi məhdudiyyətlərin meydana gəlməsi sahibkarlara dövlət dəstəyinin göstərilməsinin əhəmiyyətini ön plana çəkdi. Azərbaycanda kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi kifayət qədər əhəmiyyətli məsələrdəndir. Bu inkişaf xüsusiyyətlərinə makroiqtisadi siyasət, ölkə vətəndaşlarının əmək qabiliyyəti, dövlət idarəçiliyi və s. kimi prosedurlar aid edilir.

### 2.3. Koronavirus pandemiyası dövründə kiçik sahibkarlıq subyetlərinə dövlətin maliyyə dəstəyinin iqtisadi əhəmiyyəti

İlk dəfə Çinin Vuhan şəhərində, 2019-cu ilin dekabr ayında peyda olmuş bu infeksion xəstəlik ilk öncə Çində bütün həyata və iqtisadiyyata güclü təsir etmiş, sonra isə Tailand, Cənubi Koreya, İran kimi ölkələrə yayılmağa başlamışdır. 2020-ci ildən etibarən İtaliyadan başlayaraq, Avropa və Amerika kimi ölkələrə öz təsirini göstərmiş və hazırda bütün dünyada geniş yayılmışdır. 2020-ci ilin mart ayından etibarən Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən bu xəstəlik koronavirus pandemiyası olaraq adlandırılmış və bir çox ölkələrdə sərt karantin rejimləri tətbiq

edilməyə başlanılmışdır. Hazırda dünyada davam edən koronavirus pandemiyası şəraitində ölkələrin iqtisadiyyatına və onların şirkətlərinin maliyyə vəziyyətinə göstərdiyi mənfi təsirləri həm dünya ölkələrində, həm ölkəmizdə aradan qaldırmaq, itkilərin qarşısını almaq, sahibkarlara və ümumilikdə iqtisadiyyata dəstək olmaq məqsədi ilə bir sıra tədbirlər həyata keçirilmişdir.

Covid-19 virusunun iqtisadiyyatda yaratdığı təxribat xüsusilə kiçik müəssisələri dərindən sarsmışdır. Bu çətin vaxtlarda kiçik müəssisələr üçün müəyyən bir yol xəritəsi çəkmək və onlara dəstək göstərmək olduqda əhəmiyyətli məsələlərdən hesab olunur. Virusun qlobal miqyasda göstərdiyi təsirlər ölkəmizdə də, bir çox müəssisələrin fəaliyyət istiqamətlərində dəyişikliyə gətirib çıxartdı.

Pandemiya müddətini ən az zərərlə yola salmaq üçün öncəliklə çalışan əməkdaşların sağlamlığını qorumaq, müəssisələrin maliyyə axınını tənzimləmək, güzəştli kredit və dəstəklərdən yararlanmaq vacib hesab olunan məsələlərdəndir. Hazırda bütün dünya ölkələrində xüsusilə inkişaf etmiş iqtisadiyyata sahib olan ölkələrdə koronavirus pandemiyası göstərdiyi mənfi təsirlər daha çox ön plana çıxmış və araşdırmalar nəticəsində öncədən mümkün ola biləcək iflas hallarının 25% olacağı müəyyən edilmiş, əsasəndə ticarət əlaqələrində 4.3% azalma müşahidə edilmişdir.

Covid-19 virusu ilə əlaqədar xəstəliyə yoluxan şəxslərin sürətli şəkildə artması, bununla əlaqədar həyata keçirilən tədbirlərin sıxlaşdırılmasına, məhdudiyyətlərin daha da artırılmasına, dünya ölkələrində iqtisadiyyatın durğunluğuna və ümumilikdə qlobal böhrana səbəb olmuşdur. Koronavirus pandemiyada səbəbindən dünyada fəaliyyət göstərən biznes müəssisələrindən təxminən 232 milyon topdan və pərakəndə sektoruna, 111 milyon istehsalat sektoruna, 51 milyon otel və restoran sahələrinə, 42 milyon ticarət sektoruna və 25 milyon digər sektorlara olmaqla, ümumilikdə 450 milyon biznes müəssisələrinin fəaliyyətinə zərər dəymiş və təxminən 25 milyon insan öz işindən məhrum olmuşdur.

Hər kəsə məlumdur ki, hazırda bütün dünyada hökm sürən pandemiya şəraiti ilə əlaqədar mənfi təsirlərə məruz qalan bir çox ölkələr həm sosial, həm də iqtisadi

vəziyyətinin sağlamlaşdırılması, böhranın maliyyə itkisinin azaldılması məqsədi ilə hər biri öz fəaliyyətinə uyğun tədbirlər həyata keçirmişdir. Ölkələrin əksəriyyəri sığorta və vergi güzəştləri, kredit dəstəkləri, nağd yardımlar, faiz endirimləri kimi tədbirlərlə iqtisadiyyatı canlandırmağa çalışmışlar. Bu tədbirlər içərisində, dövlət tərəfindən göstərilən dəstək proqramlarının xüsusilə Azərbaycanda ümumi həcmi 2,5 milyard manat təşkil edir. Bu da ölkəmizdə Ümumi Daxili Məhsulun (ÜDM) 3%-ni əhatə edir. İnkişaf etmiş İtaliya və İspaniya kimi ölkələrdə bu göstərici 1%, Rusiya, Qırğızıstan, Ukrayna, Gürcüstan və s. kimi Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrində, Şərqi Avropa ölkələrində bu göstəri 0.3-1% aralığında, qonşu Turkiyədə isə 1,5% həcmində özünü əks etdirir. Regionda digər ölkələrlə müqayisədə ölkəmizdə bu tədbirlərə xüsusi diqqət göstərilmişdir. Bu tədbirlərin həyata keçirilməsində başlıca məqsəd əhalinin həm sağlamlığının qorunması, həm də sosial rifahının yaxşılaşdırılmasıdır.

Son zamanlar kiçik sahibkarlıq subyektlərinin inkişafı sahəsində həyata keçirilən tədbirlər, dövlətin kiçik biznes müəssisələrinə göstərdiyi qayğı və himayədarlıq onların fəaliyyətinin genişləndirilməsinə və inkişafına, eyni zamanda iri müəssisələrlə rəqabət mühitinə tab gətirməsinə dəstək olmuşdur. Dövlət tərəfindən kiçik sahibkarlıq subyektlərinə xüsusi münasibət göstərilir, yəni dövlət büdcəsindən – Azərbaycan Respublikası Dövlət Neft Fondundan və Sahibkarlara Kömək Dövlət Milli Fondundan kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi məqsədilə xeyli vəsait ayrılır. Kiçik sahibkarlıq subyektlərinə dəstək məqsədilə həyata keçirilən proqramlar çərçivəsində dövlətin aşağıda göstərilən himayədarlıq istiqamətləri qeyd edilmişdir:

- Kiçik sahibkarlığın dövlət tərəfindən himayə edilməsinin və inkişafının normativ-hüquqi bazasının formalaşdırılması və təkmilləşdirilməsi;
- Kiçik sahibkarlıqda təhlükəsizliyin təmin edilməsi və sosial müdafiənin tətbiq edilməsi;
- Maliyyə vəsaitləri ilə təmin edilməsi və investisiyanın cəlb edilməsi;
- Yeni iş yerlərinin yaradılması və infrastrukturun formalaşdırılması;
- İnnovasiya və istehsalat dəstəyi;

- İnformasiya bazası və kadr ehtiyatı ilə təmin edilməsi və s.

Azərbaycan Respublikası ərazisində makroiqtisadi sabitliyə nail olmaq, sahibkarlıq subyektlərinin inkişafına mənfi təsir göstərən amillərin qarşısını almaq, məşğulluq məsələləri ilə əlaqədar yaranmış problemlərin qarşısını almaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli "Covid-19 pandemiyasından zərərçəkmiş sahibkarlara dövlət dəstəyinin göstərilməsi haqqında" 1950 №-li Sərəncamının 10.2-ci bəndinin icra edilməsi məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən Tədbirlər Planı təsdiq edilmişdir. Bu planın tətbiq edilməsi zamanı dəstək mexanizmlərinin 3 istiqamətdə fəaliyyət göstərəcəyi qeyd edilmişdir. Aşağıda əsas fəaliyyət istiqamətlərin və onların əhatə dairəsi qeyd edilmişdir:

**Cədvəl 8: Pandemiyadan zərərçəkmiş sahələrə dövlət dəstəyi və onların istiqamətləri**

| İqtisadi artıma və sahibkarlığa dəstək | Sosial rifaha və məşğulluğa dəstək | Makroiqtisadi və maliyyə sabitliyinə nail olmaq |
|---|---|---|
| - Pandemiyadan zərərçəkmiş muzdlu işçilərə əməkhaqqının müəyyən hissəsinin ödənilməsi və fərdi sahibkarlara maliyyə dəstəyinin göstərilməsi;<br>- Vergi güzəştlərinin tətbiq edilməsi;<br>- İqtisadiyyatın və sahibkarlığın güzəştli şərtlərlə kredit əldə etmə imkanlarının genişləndirilməsi və kredit-zəmanət dəstəyinin verilməsi;<br>- Pandemiyadan zərərçəkmiş sahələrdə dəstək tədbirlərinin göstərilməsi və pandemiyadan sonrakı dövrdə də iqtisadi artımın yeni modelinin tətbiq edilməsi və s. | - Əhalinin sosial cəhətdən həssas olan üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi;<br>- Muzdlu işçilərin sosial müdafiəsi və işsizlik riskindən qorunması;<br>- İşdən azad edimiş və ya işsiz qalan şəxslərin məşğulluğunun təmin edilməsi və sosial müdafiəsi və s | - Müasir dövrə uyğun olan makroiqtisadi siyasət fomasının hazırlanması;<br>- Kredit təşkilatlarına tənzimləyici tətillərin verilməsi;<br>- Valyuta rejiminin effektivliyinin artırılması və kapitalın hərəkəti istiqamətində qarşılıqlı tədbirlərin görülməsi və s. |

**Mənbə:** https://audit.gov.az

Pandemiyadan zərərçəkmiş sahələrə dövlət dəstəyi və onların istiqamətləri başlığı altında qeyd edilənlərə əsasən deyə bilərik ki, rəsmi mənbələrdən əldə edilmiş məlumatlara görə, Tədbirlər Planı çərçivəsində pandemiyadan zərərçəkmiş

sahələrdə çalışan 300000 nəfər muzdlu işçilər üçün iki hissəli şəkildə 215 milyon manat və 300000 nəfər fərdi sahibkar üçün 80 milyon manat məbləğində ödəniş ediləcəyi nəzərdə tutulmuşdu.

5 may 2020-ci il tarixində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş məlumata əsasən, 4 may 2020-ci il tarixinə qədər cəmi 118,186 vergi ödəyicisinin (92,553 fərdi sahibkar və 25,633 vergi ödəyicisi) maliyyə dəstəyi əldə etmək üçün müraciəti daxil olmuşdur. Bu müraciətlər daxilində 20,596 vergi ödəyəcisinin müraciəti araşdırılmış və nəticədə bu tarixə qədər 186,883 muzdlu işçini əmək haqqısı üzrə 42,4 milyon manat vəsaitin ödənilməsi təmin edilmişdir. Fərdi sahibkarlara göstərilən maliyyə dəstəyi çərçivəsində isə daxil olan 92,553 müraciətin araşdırılaraq 83,870-i öz təsdiqini tapmış və 51,57 milyon manat məbləğində maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulmuşdur. Buna baxmayaraq, 4 may tarixinə qədər 78,643 fərdi sahibkara 49,2 milyon manat məbləğində vəsait ödənilmişdir.

Yuxarıda qeyd edilmiş makroiqtisadi və maliyyə sabitliyinə nail olmaq məqsədi ilə 2020-ci il 25 aprel tarixində, Azərbaycan Respublikası Mərkəzi Bankının Maliyyə Sabitliyi Şurasının tövsiyələri əsasında, sığorta və kapital bazarının bütün iştirakçılarına maliyyə dəstəyinin göstərilməsi ön plana çəkilmişdir. Belə ki, İpoteka və Zəmanət Fondlarının vəsaitləri hesabına verilmiş kreditlərin keyfiyyətinin pisləşdirilməməsi səbəbi ilə kreditlərin restrukturizasiyası imkanları yaradılmış, kapital tələblərinin il sonuna qədər 1% azaldılması və tənzimləyici tədbirlərin görülməsi, ümumilikdə, kapital və sığorta bazarında yaranmış mənfi təsirlərin aradan qaldırılması nəzərdə tutulmuşdur.

Hazırda ölkəmizdə fəaliyyət göstərən qeyri-kommersiya təşkilatlarının fəaliyyətinin əsasında, iqtisadiyyatda mövcud olan problemlərin həll olunması və kiçik sahikarlıq subyektlərinin inkişaf etdirilməsi dayanır. Buna baxmayaraq, kiçik sahibkarlıq subyektləri tərəfindən ödənilən çoxsaylı vergilər, kredit təşkilatları və banklar tərəfindən ayrılan kreditlərin qısamüddətli və yüksək faizli olması, kommunal xərclərin yüksək səviyyədə olması onların inkişafına maneə yaradan amillərdəndir. Bütün dünyanı əhatəsinə alan koronavirus pandemiyasının təsiri

altında, bunları nəzərə alaraq, kiçik sahibkarlıq subyektləri vergi qanunvericiliyinə uyğun formada güzəştlərdən istifadə edirlər. Aşağıda tətbiq edilən güzəşt istiqamətləri qeyd edilmişdir:

- Vergi dərəcələrinin aşağı endirilməsi və ya vergilərdən azad edilmə;
- Vergilərin ödənilməsi üçün vaxtda güzəşt edilməsi;
- Sürətli amortizasiyanın istifadə edilməsi imkanı

Vergi güzəştləri yerli və regional vergilər üzrə aşağıda göstərilən hallarda tətbiq edilə bilər:

– Müəssisələrdə istehsalın yenidənbərpası və ya elmi-tədqiqat işlərinin keçirilməsi zamanı

– Əhalinin sosial cəhətdən həssas qrupları üçün yeni iş yerlərinin açılması və təbiəti mühafizə tədbirləri zamanı;

– Müəssisələrdə innovativ tədbir və ya fəaliyyətin keçirilməsi zamanı;

– Məhsul və xidmətlərin əhalinin tələbatına uyğun şəkildə müasir texnologiyalar əsasında təşkili zamanı;

– Müəssisələr tərəfindən əhalinin sosial rifahının yaxşılaşdırılması və regionun inkişafı məqsədilə tədbirlərin təşkili zamanı;

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondunun rəsmi səhifəsindən əldə etdiyimiz məlumatlara əsasən sahibkarlığın inkişaf etdirilməsi məqsədi ilə, "Güzəştli Kredit Mexanizmi" adı altında sahibkarlara dəstək məqsədilə güzəştli kreditlər təklif olunur. Bu kreditin verilməsi istiqamətində əldə edilən qərarlar Fondun Müşahidə Şurası tərəfindən qəbul edilir. Kredit əldə etmək istəyən sahibkarlar müvəkkil kredit təşkilatlarına müraciət edə və bu barədə ətraflı məlumat əldə edə bilirlər. Kreditin sahibkara verilməsi qərarı Fond və müvəkkil bank arasında edilən danışıqlar əsasında 10 iş günü müddətində qəbul edilir. Kredit illik faiz dərəcəsi 5 % olmaqla, 10 il müddətinə və 5 000-10 000 000 manat məbləğində sahibkarlara təklif edilir.

"Avadanlıq Kredit Mexanizmi" adı altında verilən kreditlər də vardır ki, bu kreditlər mövcud avadanlıqları yeniləmək və ya yeni avadanlıqlar almaq məqsədilə

avadanlıqların girov qoyulması yolu ilə verilir. Güzəştli kreditlərlə müqayisədə illik faiz dərəcəsi 9 %, müddəti 5 ilədək və 5 000-3 000 000 manat məbləğində sahibkarlara təklif edilir.

"Faiz Subsidiyası Mexanizmi" adında dəstək mexanizmi də mövcuddur ki, bu mexanizm digər mexanizmlərdən fərqli olaraq, 2020-ci ilin 10 mart tarixinə qədər manatla aktiv krediti olan və pandemiyadan zərər çəkmiş sahibkarlara illik 10 % faiz dərəcəsi ilə 12 aydan çox olmayan müddətdə kreditin ayrılmasını nəzərdə tutur.

Bütün qeyd edilənlərə əsasən deyə bilərik ki, kiçik sahibkarlıq subyektlərinə və onların inkişafına maliyyə dəstəyi göstərmək və maliyyələşdirmək üçün dünya təcrübəsində sınaqdan keçirilmiş maliyyə vasitələrindən və kanallarından, xüsusilə lizinq şirkətlərinin xidmətlərindən, büdcə vəsaiti hesabına verilən ipoteka kreditlərindən, habelə vençur kapitalından geniş istifadə edilməlidir.

Kiçik sahibkarlıq subyektlərinə dövlət tərəfindən dəstək göstərilməsi müəssisələrin fəaliyyətinin genişləndirilməsi, inkişafı və iri müəssisələrlə rəqabətə dayanıqlılığının təmin edilməsinə şərait yaradır.

Ölkəmizdə kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi və rəqabətədayanıqlılığının təmin edilməsi məqsədilə maliyyə vəsaiti ilə təminatın gücləndirilməsi və kapital təminatının artırılması məsələləri həll olunmalıdır.

Ümumilikdə, həyata keçirilən tədbirləri nəzərdən keçirdiyimiz zaman müşahidə edə bilərik ki, Tədbirlər Planı detallı şəkildə işlənmiş və bir çox sahələri əhatə etmişdir. Bu sahədə həyata keçirilən və keçiriləcək tədbirlər həm iqtisadi, həm sosial baxımdan mənfi təsirlərin aradan qaldırılmasına və itkilərin minimuma endirilməsinə böyük töhfələr vermişdir.

# III FƏSİL. KİÇİK SAHİBKARLIQ SUBYEKTLƏRİNİN FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. Kiçik sahibkarlıq subyektlərinin ölkənin sosial və iqtisadi inkişafda rolunun artırılması istiqamətləri

Hər bir ölkənin sosial və iqtisadi inkişafının təmin edilməsi əhalinin sosial rifahının yaxşılaşdırılması və mövcud potensial resurslardan səmərəli istifadə edərək tələbatının ödənilməsini özündə əks etdirir. Sahibkarlıq subyektlərinin, xüsusilə kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsi əhalinin yoxsulluq səviyyəsinin azaldılmasına, məşğulluq problemlərinin həllinə və istehlak məhsullarına olan tələbatın ödənilməsinə təsir göstərərək ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Bu səbəbdən, ölkəmizdə kiçik sahibkarlıq subyektlərinin sosial və iqtisadi inkişafda rolu birbaşa olaraq, ölkəyə investisiya axınının gücləndirilməsi, yeni iş yerlərinin açılması, əhalinin məşğulluqla təminatının artırılması və s. ilə əlaqələndirilir.

Son dövrlərdə, dövlət tərəfindən kiçik sahibkarlıq subyektlərinə göstərilən dəstək və güzəşt mexanizmləri hesabına regionların iqtisadi aktivliyi artmış, gəlirlərin şəffaflaşdırılması və regionlarda vergi daxil olmalarının artımı müşahidə edilmişdir. Azərbaycanın xüsusilə regionlarında qeyri-neft sektorunun inkişaf etdirilməsi məqsədilə əsasən turizm, kənd təsərrüfatı, emal sənayesi, tikinti, informasiya-kommunikasiya texnologiyaları kimi sahələrin ölkəyə investisiya axını, dövlət dəstəyinin göstərilməsi, subsidiyaların və güzəştli şərtlərlə kreditlərin verilməsi, vergi güzəştlərinin göstərilməsi və s. hesabına inkişafına xüsusi diqqət ayrılır.

İqtisadiyyatın başlıca qüvvəsi hesab edilən sahibkarlıq, ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsində əsas rol oynayır. Elm və texnikanın inkişaf etdiyi müasir dövrdə, rəqabətli bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi inkişafa nail olmaq üçün yüksək texnologiya və innovasiya əsasında iqtisadi modelin qurulması ölkəmizin iqtisadi siyasətinin əsas xüsusiyyətlərindən biri hesab edilir. Son dövrlərdə, ölkəmizdə sahibkarlığın, xüsusilə kiçik sahibkarlığın inkişaf etdirilməsi

məqsədilə müxtəlif kompleks təbirlər həyata keçirilmiş, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi məqsədilə əlverişli şərait yaradılmışdır.

Kiçik sahibkarlıq subyektlərinin ölkəmizdə əhatə etdiyi sahələr kompleks təhlil olunur və yerli istehsal sistemindən asılı olaraq qiymətləndirilir. Kiçik sahibkarlıq subyektləri, ölkə iqtisadiyyatında maliyyə resurslarını genişləndirmək, yerli istehlak tələbatını ödəyən məhsul və xidmət strukturu yaratmaq, eyni zamanda mövcud resurslardan səmərəli istifadə etməklə onları istehsala cəlb etmək məqsədi güdür.

Ölkəmizdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin əksəriyyətini kiçik sahibkarlıq təşkil etdiyindən iqtisadiyyatın inkişafında onların böyük potensialının olduğunu müşahidə edə bilirik. Eyni zamanda, qlobal iqtisadiyyatın tərkib hissəsi olan milli iqtisadiyyatımızın xarici mühitdən təsirlənə bildiyini nəzərə alaraq, iqtisadiyyatın inkişafının dayanıqlı və genişləndirilmiş formada olması mühüm hesab olunur. Ona görə də, makroiqtisadi sabitliyin gücləndirilməsi, həm xarici, həm də daxili təsirlərə qarşı dayanıqlılığın möhkəmləndirilməsi və şaxələndirilməsi təmin edilməlidir. Ölkəmizdə sosial-iqtisadi inkişafın səmərəliliyi baxımından, qeyri-neft sektorunun inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin 2 fevral 2021-ci il tarixində imzaladığı “Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlə” Sərəncamına əsasən aşağıda qeyd edilən prioritetlərin reallaşdırılması nəzərdə tutulur:

1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat – Bu prioritetdə əsas məqsəd uzunmüddətli dövr ərzində iqtisadiyyatın davamlı inkişafı üçün zəmin yaratmaq, iqtisadiyyata təsir göstərə biləcək mövqelərə qarşı dayanıqlı olmaqdır. Prioritetin səmərəli şəkildə tətbiq edilməsi üçün 2 əsas xüsusiyyət nəzərdən keçirilir.

*1.1. Davamlı və yüksək iqtisadi artım* iqtisadiyyatın dərin şaxələnməsi, yüksəkgəlirli iş müəssisələrinin yaradılması, məhsul və xidmətlərin ixrac potensialının formalaşdırılması, əhalinin həyat səviyyəsinin yüksəlməsi, adambaşına düşən milli gəlirin yüksəlməsi və s. üçün əsas vasitədir. İqtisadi artımın qeyri-neft sektorunun payı hesabına artırılması üçün əsas məsələ əlverişli biznes mühitinin yaradılması, haqsız rəqabətin aradan qaldırılması və hüquqi müstəvidə

şəffaflığın qorunması ilə birbaşa əlaqəlidir. Bununla yanaşı, ölkə iqtisadiyyatına investisiya cəlbinin artırılması məqsədilə infrastrukturun təkmilləşdirilməsi, xarici investorların rəqabət mühitinə uyğunlaşdırılmasının təmin edilməsi və milli maraqların qorunması mühüm əhəmiyyət kəsb edir.

*1.2. Daxili və xarici təsirlərə dayanıqlılıq* iqtisadiyyatın inkişafına mənfi təsir göstərəcək amillərin aradan qaldırılması üçün mübarizə tədbirlərinin təşkili və makroiqtisadi sabitliyin qorunub saxlanmasını özündə əks etdirir. Ölkə iqtisadiyyatın hərtərəfli inkişaf etdirilməsi onun dayanıqlılığına əsas və ölkənin qlobal miqyasda tanınmasına əsas vasitədir. Bu səbəbdən, dünya ölkələrinin əksəriyyəti sahibkarlığın, xüsusilə kiçik sahibkarlıq subyektlərinin inkişafına, xüsusi diqqət yetirir. Qeyd edilənlərlə yanaşı, iqtisadiyyatın xarici təsirlərdən qorunması və dayanıqlılığın təmin edilməsi üçün ölkənin nizamlı borclanma və sabit valyuta ehtiyatının olması vacibdir. Belə olan halda, dövlət tərəfindən nəzarət tədbirləri gücləndirilməli və borcların idarəedilməsinə diqqət yetirilməlidir.

2. Dinamik, inkluziv və sosial ədalətə əsaslanan cəmiyyət – Bu prioritetin əsas mahiyyəti dayanıqlı iqtisadiyyata malik olan ölkə əhalisinin bərabər şəkildə və yaşadığı regiondan asılı olmadan iqtisadi imkanlardan eyni səviyyədə istifadə etmə potensialına malik olmasından ibarətdir.

*2.1. İnkişafdan hər bir vətəndaşın bəhrələnməsi* iqtisadiyyatın inkişaf etdiyi bir dövrdə əhalinin həyat səviyyəsinin yüksəldilməsi məqsədilə məşğulluqla təminatın artırılması, əmək haqqının artırılması və muzdlu işləyən şəxslərin xüsusilə özəl müəssisələrdə fəaliyyətinin davam etdirilməsinə şəraitin yaradılmasını özündə əks etdirir. Ölkəmizdə kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsinin başlıca səbəblərindən biri də, əhalinin məşğulluğun təmin edilməsi ilə bağlıdır.

*2.2. Yüksək və ədalətli sosial təminat, inkluziv cəmiyyət* sosial təbəqələrin hər birinə ədalətli yanaşmanın və dövlət qayğısının göstərilməsinin təmin edilməsinin zərurətini özündə əks etdirir. Əhalinin sosial cəhətdən həssas, aşağıgəlirli təbəqəsi, əlilliyi olan şəxslər, sağlamlıq imkanları məhdud olan şəxslərin sosial müdafiəsi təmin edilməli və ödənilən təqaüd, müavinət və pensiyaların məbləği layiqli

səviyyəyə çatdırılmalıdır. Bununla yanaşı, həmin şəxslərin məşğulluğuna dəstək göstərmək məqsədilə xidmətlər göstərilməlidir.

*2.3. Paytaxt və regionların tarazlı inkişafı* ölkəmizin paytaxtı Bakı və ona yaxın ərazilərin hazırki dövrdə regionlara nisbətən daha çox inkişaf etdiyini və bu natarazlığın aradan qaldırılması məqsədilə regionların inkişafının paytaxtın inkişafına uyğun şəkildə təmin edilməsinin mühüm əhəmiyyət kəsb etdiyini özündə əks etdirir. Regionların inkişaf etdirilməsi məqsədilə infrastruktur yaradılmalı və əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə geniş şərait yaradılmalıdır.

3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı – Bu prioritet müasir dövrdə bütün dünya ölkələrində elm və texnologiyanın inkişafı ilə əlaqədar olaraq həyatın rəqəmsallaşmasını, insan amilinin iştirakı olmadan mövcud olan aktiv sahələrin genişləndirilməsini özündə əks etdirir. Bu prioritetdə başlıca məqsəd müasir, savadlı, rəqabətli insan kapitalı formalaşdırmaq və insanların həyat və sağlamlığını qorumaq şərtilə innovasiyaları stimullaşdırmaqdır. Qeyd edilənlərə əsasən, bu prioritetin gerçəkləşməsi və geniş yayılması məqsədilə 3 əsas xüsusiyyət nəzərdən keçirilməlidir:

*3.1. Müasir dövrün tələbinə uyğun təhsil* bütün dünya ölkələrinin rəqabətli bazar şəraitində olduğunu nəzərə alaraq, iqtisadiyyatının inkişafının uzunmüddətli fəaliyyətinin təmin olunmasında müasir tələblərə cavab verən və güclü təhsil sisteminin olması zərurətini özündə əks etdirdiyini müşahidə edə bilərik. Müasir dövrümüzdə əldə etdiyimiz hər bir məlumatın tez bir zamanda köhnəldiyini nəzərə alaraq, rəqəmsallaşan bir dünyada tədris prosesində rəqəmsal vərdişlərin aşılanmasına və müasir dövrün tələblərinə cavab verən ixtisas və peşələrin yaradılması və tətbiqinə xüsusi əhəmiyyət verilməlidir. Əmək bazarının tələblərinə uyğun kadrların formalaşdırılması, beynəlxalq sertifikatlara malik mütəxəssislərin artırılması, eyni zamanda yüksək bacarıqlı insan kapitalı yaradılması məqsədilə yüksək keyfiyyətli təhsil imkanlanları artırılmalıdır.

*3.2. Yaradıcı və innovativ cəmiyyət* müasir rəqəmsallaşan bir dünyada texnoloji vasitələrin geniş tətbiqi innovasiyaların tətbiq edilməsi və cəmiyyətin yaradıcılıq qabiliyyətini ön plana çəkir. Son dövrlərdə, yüksək texnoloji bacarıqların

tələb olunduğu elmtutumlu sahələrin inkişaf etdirilməsi, emal sənayesinin inkişafına xüsusi diqqətin göstərilməsi, dünyada baş verən rəqəmsal inkişafa uyğunluğun təmin edilməsi mühüm əhəmiyyət kəsb edir.

*3.3. Vətəndaşların sağlam həyat tərzi* əhalinin sosial rifahının yaxşılaşdırılması və fəaliyyətinin məhsuldarlığını qorumaq məqsədilə onlara sağlam və uzunömürlü həyat tərzi yaradılmalıdır. Qeyd edilənlər, ölkənin səhiyyə sistemində görülən işlər, əldə edilən yüksək nəticələrlə əlaqəli olduğundan, keyfiyyətli xidmətlər göstərilməli və əhalinin sağlam həyatının orta ömür müddətinin də artımına səbəb olacağı nəzərə alınmalıdır.

4. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış – Uzun müddətdir ki, düşmən əsarəti altında olan torpaqlarımızın xilas olması ilə, Azərbaycan xalqı böyük qələbə qazandı. İşğaldan azad edilmiş ərazilərdə abadlıq, yenidənqurma və bərpa işlərinin görülməsi ilə öz yurd-yuvasından köçkün düşmüş şəxslərin azad olunmuş ərazilərdə yerləşdirilməsi həyata keçirilməlidir. İşğaldan azad olunmuş torpaqlarımızın inkişaf etdirilməsi, quruculuq işlərinin dövlət-özəl tərəfdaşlığı əsasında görülməsi ilə həmin ərazidə görüləcək işlərin ölkə iqtisadiyyatının inkişafına təkan verməsinə səbəb olacaqdır. Bu prioritetin müvəffəqiyyətlə həyata keçirilməsi üçün 2 əsas məsələyə xüsusi diqqət yetirilməlidir:

*4.1. Dayanıqlı məskunlaşma* işğaldan azad edilmiş torpaqlarımızda quruculuq işlərinin görülməsi, müasir infrastrukturun yaradılması, əlverişli və rahat yaşayış mühitinin formalaşdırılması ilə əhalinin işğaldan öncəki dövrlərdə olduğu kimi məskunlaşmasının təmin edilməsinə şərait yaradılmasıdır. Bu səbəbdən, həmin ərazilərin resurs və potensialından effektiv istifadə edilməsinə, əhalinin təhlükəsiz və əlverişli mühitdə yaşamasına diqqət yetirilməlidir.

*4.2. İqtisadi fəaliyyətə inteqrasiya* işğaldan azad olunmuş torpaqlarımızın inkişafının digər regionlarımızla eyni səviyyəyə çatdırılmasının təmin edilməsi, həmin ərazilərin təbii resurslarından səmərəli istifadə edilməsi və tarixi mövqeyinin qorunub saxlanılması məqsədilə investisiya axının genişləndirilməsi, xüsusilə özəl müəssisələrin təşəbbüsünün artırılması istiqamətində tədbirlər görülməlidir.

5. Təmiz ətraf mühit və “Yaşıl artım” ölkəsi – Bu prioritetdə dünyada baş verən qlobal istiləşmə və iqlim dəyişkənliyi ilə əlaqədar olaraq, ekoloji cəhətdən təmiz texnoloji vasitələrdən istifadənin genişləndirilməsinə, təbii resurslardan istifadənin minimuma endirilməsinə, alternativ və təmiz enerji mənbələrindən istifadənin artırılmasının mühüm əhəmiyyət kəsb etməsinə əsasən ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması, su və enerji ehtiyatlarından səmərəli istifadə edilməsi, yaşıllıqların artırılması və s. təmin edilməlidir. Bu prioritet çərçivəsində aşağıda qeyd edilən 2 əsas məqsəd həyata keçirilməlidir:

*5.1. Yüksək keyfiyyətli ekoloji mühit* hər bir ölkənin iqtisadi inkişaf səviyyəsindən asılı olaraq ətraf mühitin mühafizəsini və təbii resurslardan səmərəli istifadə edilməsini əhəmiyyətini özündə əks etdirir. Yüksək keyfiyyətli ekoloji mühitin təmin edilməsi ətraf mühitin ekoloji təmizliyinin davamlı nəzarətdə saxlanmasını və yaranmış problemlərin qarşılıqlı şəkildə həll edilməsini əhatə edir.

*5.2. Yaşıl enerji məkanı* müasir dövrdə inkişaf etmiş ölkələrin əksəriyyəti təbii resurslardan istifadənin minimuma endirilməsi məqsədilə, bərpa olunan və alternativ enerji mənbələrindən istifadəyə üstünlük verirlər. Ekoloji cəhətdən təmiz ətraf mühitə nail olmaq məqsədilə, diqqət yetirməli olduğumuz məqamlardan biri də, elmi-texnoloji potensiala malik olan enerji mənbələrindən istifadə etməkdir. Eyni zamanda, nəqliyyat vasitələrindən istifadənin minimuma endirilməsi də, atmosferin zərərli maddələrlə çirklənməsinin qarşısını alacaq və ətraf mühitin sağlamlaşdırılmasında böyük rol oynayacaqdır.

Ölkəmizdə regional olaraq sahibkarlığın hər hansı sahə üzrə inkişaf etdirilməsi resurs potensialı və infrastrukturun olması ilə birbaşa əlaqəlidir. Regionlarda sahibkarlığın inkişaf etdirilməsi investorların cəlbinə, əhalinin məşğulluğunun təmin edilməsinə, ixracyönümlü sahibkarlığın inkişafına əlverişli şərait yaradır. Bu səbəbdən regionlarda sahibkarlığın inkişaf etdirilməsi üçün klasterial inkişaf modellərindən (kompleksləşdirilmiş məhsul və xidmət, təhsil müəssisələri, elmi-tədqiqat institutları və s.), sahibkarlığın rəqabətədayanıqlılığını və qabiliyyətini artıran vasitələrdən istifadə edilməlidir.

Araşdırmalar nəticəsində koronavirus pandemiyasının sosial və iqtisadi inkişafa mənfi təsirlər göstərməsi ilə bir sıra reallıqları üzə çıxardığı müşahidə edilmişdir. Bunlar içərisində, gözlənilməz hadisələrə qarşı hazırlıqlı olmağın üstünlükləri, iqtisadiyyatın dayanıqlılığının gücləndirilməsi, müasir texnoloji avadanlıqlardan istifadə etməklə rəqəmsal biznes mühitinin formalaşdırılması qeyd oluna bilər. Gələcək on il ərzində “yaşıl iqtisadiyyat” prinsipinin tətbiqi, yüksək keyfiyyətli innovativ idarəetmə ölkəyə investisiya axının təkmilləşdirilməsinə eyni zamanda, sahibkarlıq subyektlərinin fəaliyyətinə güclü təsir göstərəcəkdir.

## 3.2. Postpandemiya şəraitində kiçik sahibkarlıq subyektlərinin inkişafında dövlət dəstəyinin artırılması istiqamətləri

Pandemiya şəraitinin hələ də, davam etməsinə baxmayaraq virusun yayılma sürətinin azalması, kütləvi şəkildə virusəleyhinə peyvəndlərin vurulması və s. tədbirlər ilə əlaqədar olaraq, karantin rejiminin yumşaldılması, bəzi qapanmaların aradan qaldırılması, pandemiyanın təsir dairəsinin və xüsusilə iqtisadiyyata təsirinin azalması müşahidə edilmişdir. Xüsusilə 2021-ci ilin əvvəlindən etibarən dünya iqtisadiyyatının dirçəlməsi müşahidə edildiyindən, müxtəlif ölkə və regionlarda, əsasən dünyanın iki nəhəng iqtisadiyyata malik ölkələri olan ABŞ və Çində iqtisadiyyatın bərpası prosesi başladığından, hazırda postpandemiya dövrünün başlanğıcını qəbul edilir. Buna baxmayaraq, bəzi ölkələrdə bunu demək mümkün deyildir.

Ölkəmizdə koronavirus pandemiyası səbəbilə mənfi təsirlərə məruz qalan kiçik sahibkarlıq subyektlərinə dəymiş zərəri minimuma endirmək və itkilərin qarşısını almaq məqsədilə dəstək tədbirləri həyata keçirilmişdir. Tarixən mövcud olmuş epidomoloji xəstəliklərin təsiri uzun müddət iqtisadiyyatda özünü əks etdirmişdir. Şübhəsiz ki, koronavirusun hələdə davam etməkdə olan təsirləri, gələcəkdə də iqtisadi və sosial verilən qərarların tətbiqində özünü əks etdirəcəkdir.

Bildiyimiz kimi, son dövrlərdə bütün dünya ölkələri kiçik sahibkarlıq subyektlərinin inkişafına xüsusi diqqət göstərir. Ölkəmizdə əhalinin sosial rifahinin və həyat səviyyəsinin yaxşılaşdırılması, məşğulluqla təminatının artırılması,

əhalinin istehlak tələbatının və daxili bazarın yerli məhsullar hesabına təminatının artırılması, azad bazar rəqabətinin formalaşdırılması və s. kimi digər sosial-iqtisadi problemlərin həllində mühüm rol oynayan kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi məqsədilə dövlət tərəfindən strateji əhəmiyyətli və iri miqyaslı tədbirlər həyata keçirilmişdir. Belə ki, Azəbaycan Dövlət Statistika Komitəsinin rəsmi səhifəsindən əldə etdiyimiz məlumatlara əsasən faktiki olaraq ÜDM-in həcmi 19 175,2 milyon manat, onun həcmində qeyri-neft sektorunun payı 50,5% təşkil edir. 2022-ci ilin yanvar-fevral aylarına əldə edilmiş məlumatlara əsasən keçən ilə nisbətən ümumilikdə ÜDM-in həcmində 6%, qeyri-neft sektorunun payına düşən hissəsində isə 10,1% artım müşahidə edilmişdir.

Ölkəmizdə sahibkarlığın inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlərin və dövlət dəstəyinin artırılmasına baxmayaraq bəzi suni maneələr, inhisarçılıq meyilləri, bürokratik əngəllər və s. kimi amillərə əsasən sahibkarlığın inkişafını hazırda qənaətbəxş hesab etmək olmaz. Sahibkarlıq fəaliyyəti əhalinin məşğulluğunun tam təmin edilməsində, onların istehlak tələbatının yerli məhsula əsasən tamamilə ödənilməsində, rəqabətli bazar şəraiti çərçivəsində rəqabətədavamlı məhsulların yaradılmasında həlledici amilə çevrilməmişdir. Həmçinin, onu da qeyd etmək lazımdır ki, regionlarımızda kifayət qədər xammal ehtiyatı və işçi qüvvəsi olmasına baxmayaraq kiçik sahibkarlıq subyektlərinin 70%-i Bakı şəhəri və onun ətraf regionlarında cəmlənmişdir.

Sahibkarlara dövlət dəstəyinin göstərilməsi sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi, sahibkarlığın rəqabətli bazar mühiti çərçivəsində dayanıqlılığının təmin edilməsi, ölkənin sosial-iqtisadi problemlərinin həllində rolunun möhkəmləndirilməsi və s. ilə birbaşa əlaqəlidir. Sahibkarlığın inkişaf etdirilməsi məqsədilə tədbirlərin həyata keçirilməsi Ümummili Lider Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdən tətbiq edilir. Sahibkarlığın inkişafı məqsədilə bir sıra fərman və sərəncamlar imzalanmış, yerli sahibkarlar və xarici iş adamları ilə tez-tez görüşlər təşkil edilmişdir.  17 avqust 2002-ci ildə, Ümummili Lider Heydər Əliyev tərəfindən 2002-2005-ci illəri əhatə edən "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı" haqqında fərman imzalanmışdır.

Bu proqramın başlıca məqsədi, regionlarda sahibkarlıq subyektlərinin rolunun artırılması və onların inkişafı üçün əlverişli şəraitini yaradılması, kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə, hüquqi və texniki təminatının dərinləşdirilməsi, insan resurslarının inkişaf etdirilməsi ilə əlaqədar idi. Bu Fərmanın tətbiqi nəticəsində, sahibkarlıq subyektlərinin inkişafında əhəmiyyətli irəliləyişlər olmuş, onların hüquq və mənafesinin qorunmasında mühüm rol oynamışdır. Belə ki, sahibkarlara dəstək göstərmək məqsədilə vergi yükünün azaldılması, əsassız yoxlamaların, qanunsuz müdaxilələrin qarşısının alınması, inhisarçılıq meyillərinin qarşısının alınması və s. istiqamətində güzəşt tətbiq edilmişdir.

Sahibkarlığın inkişaf etdirilməsi və xüsusilə regionlarda fəaliyyət sahələrinin genişləndirilməsi üçün dövlət tərəfindən himayədarlıq, qayğı və dəstək göstərilməsi vacib hesab olunan məsələlərdəndir. Bununla yanaşı, regionlarda sahibkarlığın inkişaf etdirilməsi üçün aşağıda qeyd edilən formada tədbirlərin həyata keçirilməsi vacibdir:

– Regionlarda sahibkarlığın inkişaf etdirilməsi üçün bank və kredit təşkilatlarının investisiya mühitinin yaradılmasında rolunun artırılması və güzəştli kreditlərin təşkilinin genişləndirilməsi;

– Regionlarda aqroservis xidmətinin gücləndirilməsi və kəndli-fermer təsərrüfatının yaxşılaşdırılması;

– Regionlarda marketinq xidmətinin tətbiq edilməsi və yerli məhsulların emal müəssisələri hesabına yaradılması;

– Regionlarda bazar münasibətlərinin genişləndirilməsi məqsədilə infrastrukturun yaradılması;

– Regionlarda kiçik sahibkarlıq subyektlərinin xüsusi formalarından hesab olunan biznes inkubatorların, sənaye və ya texnoloji parkların yaradılması və s.

Koronavirus pandemiyası səbəbindən dünyanın bir çox ölkələrində eləcə də, Azərbaycanda karantin rejimi tətbiq edilmişdi. Pandemiya səbəbindən ölkələr üzrə iqtisadi aktivliyin azalması, müəssisələrin maliyyə çətinliklərinin yaradılması, bir çox iş yerlərinin fəaliyyətinin məhdudlaşdırılması və ya bağlanması əmək bazarında

əhalinin məşğulluqla təminatına ciddi təsir göstərmiş və müəssisələr kütləvi şəkildə işçilərin ixtisarına yol vermişlər. Xüsusilə, xidmət sektorunda bu göstəricilərin payı daha çox üstünlük təşkil edir.

Pandemiya dövründə əksər dünya ölkələrində, həmçinin ölkəmizdə müəssisələr işin həcmindən asılı olmayaraq sosial müdafiənin qorunması məqsədilə qısa iş saatlarının, distant və ya növbəli idarəetmənin tətbiq edilməsinə üstünlük vermişlər. Beləliklə, pandemiya şəraitində iqtisadiyyatda rəqəmsallaşma ilə bağlı yeni meyillər ortaya çıxdı. Belə ki, koronavirus pandemiyası iqtisadiyyatın "məsafədən" idarəedilməsində texnologiya və elektron xidmətlərdən istifadənin vacibliyini özündə əks etdirdi. Hətta, rəqəmsallaşmanın, başqa sözlə, məsafədən idarəetmənin vaxta, maliyyə resurslarına, işçilərin xərclərinə və s. qənaət etdiyini müşahidə edən müəssisələr postpandemiya dövründə də distant fəaliyyəti təmin etməyi proqnozlaşdırırlar.

Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da kiçik sahibkarlıq subyektlərinin inkişafına xüsusi diqqət ayrılır. Ölkəmizdə formalaşan biznes mühitinin əsasını sahibkarlıq müəssisələri təşkil edir. Kiçik sahibkarlıq subyektləri ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynadığından daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən kiçik sahibkarlığa dəstək göstərmək və inkişaf etdirmək məqsədilə layihələr hazırlanır və tədbirlər həyata keçirilir. Koronavirus pandemiyasının sosial-iqtisadi inkişafa göstərdiyi mənfi təsirlər səbəbilə, postpandemiya dövründə də, sahibkarların fəaliyyətini stimullaşdırmaq məqsədilə dəstək tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur.

Postpandemiya şəraitində kiçik sahibkarlıq subyektlərinin inkişafında dövlət dəstəyindən danışarkən, xüsusilə son dövrlərdə texnologiyalar əsasında qurulmuş informasiya mübadiləsini genişləndirmək məqsədilə "elektron ticarət" anlayışının stimullaşdırılmasına xüsusi diqqət ayrıldığını qeyd etmək lazımdır. Ölkəmizdə yerli sahibkarların və biznes nümayəndələrinin məhsul və ya xidməti barədə məlumatlarını müştərilərə çatdırması məqsədilə 25 avqust 2008-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən "elektron ticarət"

portalının yaradılması barədə qərar qəbul edilmiş, bazara sərbəst şəkildə çıxışın təmin edilməsi və biznes əlaqələrinin qurulması üçün şərait yaradılmışdır. Xüsusilə, son dövrlərdə bütün dünyanı əhatə dairəsinə alan pandemiya şəraiti bu prosesinin daha geniş sahələri əhatə etməli olduğunu göstərmiş, pandemiyadan sonrakı dövrlərdə də, çoxmiqyaslı tətbiqi və sahibkarların nəinki yerli bazarda, hətta dünya bazarında rahat şəkildə biznes mübadiləsinin formalaşdırması üçün zəmin yaratmışdır. Qeyd edilənlərə əsasən, kiçik sahibkarlıq subyektlərinə postpandemiya dövründə də, dəstək göstərmək məqsədilə, elmi-texniki tərəqqinin hakim olduğu zamanda "elektron kommersiya" və "elektron ticarət" anlayışları xüsusilə ön plana çəkilməli və geniş şəkildə tətbiq edilməlidir.

Ölkəmizdə iqtisadiyyatın inkişafına təkan vermək, qeyri-neft sektorunun inkişafına töhfə vermək, xarici investorları cəlb etməklə əlverişli layihələrə investisiya qoymaq, xüsusilə idxaləvəzliyici və ya ixracyönümlü layihələrdə iştirak etmək məqsədilə sahibkarların investisiya təminatının gücləndirilməsinə xüsusi diqqət ayrılır. Qeyd edilən bütün xüsusiyyətlər, 2006-cı ildə təsis edilmiş Azərbaycan İnvestisiya Şirkəti ASC (AİŞ) tərəfindən nəzarətdə saxlanılır. AİŞ-ə müraciət edən sahibkarlara bazarın araşdırılmasında, investorların cəlbində, idarəetmə və risk təcrübəsinin bölüşdürülməsində xüsusilə dövlət dəstəyinin göstərilməsində köməklik göstərilir. Belə ki, postpandemiya dövründə birbaşa investisiyalar, texnologiya və istedadların ölkəmizə cəlb edilməsinin stimullaşdırılmasına xüsusi diqqət göstərilməlidir.

Koronavirus pandemiyasının ölkəmizdə davam etdiyi dövr ərzində sahibkarlara dəstək göstərmək məqsədilə bir neçə dəstək mexanizmlərindən istifadə edilmiş, sahibkarlıq subyektlərinin fəaliyyətində yaranmış mənfi təsirləri aradan qaldırmaq məqsədilə dövlət tərəfindən maliyyə yardımı göstərilmişdir. Bütün epidomoloji viruslar kimi koronavirusun da təsirləri özünü iqtisadiyyata hələ uzun müddət göstərəcəyi gözlənilir. Bu səbəbdən, postpandemiya dövründə də kiçik sahibkarlıq subyektlərinə güzəştli maliyyə dəstəklərinin göstərilməsi nəzərdə tutulur.

Sahibkarlığın inkişaf etdirilməsi xüsusilə kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsi məqsədilə 31 iyul 2018-ci il tarixində, Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Fərmanına əsasən yaradılmış Sahibkarlığın İnkişafı Fondu tərəfindən xüsusi qayğı göstərilir. Kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinə dəstək məqsədilə aşağıda qeyd edilən formada verilə biləcək güzəştli kreditlərin həcmi qeyd olunmuşdur:

**Cədvəl 9: Güzəştli kreditlərin göstəriciləri**

| Göstəricilər | Kiçik | Orta | Böyük |
|---|---|---|---|
| Müddət | 3 | 5 | 10 |
| Məbləğ (manatla) | 50 000 | 1 000 000 | 10 000 000 |
| İstifadə müddəti | Dövrün ½ | Dövrün ½ | Dövrün ½ |

**Mənbə:** http://edf.gov.az/az/content/16

Qeyd edilənlərə əsasən deyə bilərik ki, ölkə iqtisadiyyatında qeyri-neft sektorunun rolunu artırmaq məqsədilə sahibkarlara dövlət dəstəyinin gücləndirilməsini əsas tutaraq kiçik sahibkarlıq subyektlərinə verilən güzəştli kreditlərin səmərəli istifadəsinə və onların daha məqsədli layihələr üzərində tətbiqinə əlverişli şərait yaradılmışdır.

Dünyanın əksər inkişaf etmiş ölkələrində, eləcə də, Azərbaycanda sahibkarlara dəstək göstərmək məqsədilə müxtəlif iqtisadi modellərdən istifadə edilir. Belə modellərə Sənaye Parkları, Sənaye Məhəllələri və Xüsusi İqtisadi Zonaların (XİZ) yaradılması aid edilir. Bu iqtisadi modellərin hər birinin tətbiq edilməsi məqsədinin oxşar xüsusiyyətlərinə ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsi, investisiya cəlbinin stimullaşdırılması, rəqabətədavamlı və yüksək texnoloji sahələrin inkişaf etdirilməsi və s. aid edilmişdir. Aşağıda hər birinin özünəməxsus xüsusiyyətləri barədə məlumat verilmişdir:

**Sənaye Parkları** – ölkə iqtisadiyyatının inkişaf etdirilməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, ixracyönümlü və ya idxaləvəzliyici məhsullarının istehsalının genişləndirilməsi, regionlarda əhalinin məşğulluqla

təminatının artırılması, müasir texnologiyaların, eləcə də, yerli və xarici investisiyanın ölkəyə cəlb edilməsi və s. kimi tədbirlərin həyata keçirilməsi baxımından əhəmiyyətli hesab olunur. Qeyd edilənlərlə yanaşı, kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması məqsədilə sənaye parklarında infrastrukturun təminatı, inzibati işlərin sadələşdirilməsi, vergi və gömrük prosedurlarının sadələşdirilməsi, torpaq icarə haqqının aşağı həddinin müəyyən edilməsi kimi prosedurlar tətbiq edilir.

21 dekabr 2011-ci il tarixdə, Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən ölkəmizdə əhalinin məşğulluğunun təmin edilməsi, ölkə iqtisadiyyatının və qeyri-neft sektorunun inkişaf etdirilməsi məqsədilə **Sumqayıt Kimya Sənaye Parkı**, 28 dekabr 2011-ci il tarixində, müasir texnologiyalar əsasında sənaye müəssisələrinin təşkili, sahibkarlığın inkişaf etdirilməsinə dəstək göstərmək, istehsalat sahəsində əhalinin məşğulluğunun artırılması məqsədilə **Balaxanı Sənaye Parkı**, 26 fevral 2015-ci il tarixində, Mingəçevir rayonu ərazisində sahibkarlığın inkişaf etdirilməsi üçün zəruri infrastrukturun yaradılması, müasir texnologiyalar əsasında yaradılmış sənaye müəssisələrində rəqabətqabiliyyətli məhsulların istehsalı və xidmətlərin göstərilməsi məqsədilə **Mingəçevir Sənaye Parkı**, 3 iyun 2015-ci il tarixində, əhalinin məşğulluqla təminatının artırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi, rəqabətədavamlı sənaye sahələrini təşkil edilməsi məqsədilə **Qaradağ Sənaye Parkı**, 14 sentyabr 2016-cı ildə, Azərbaycan Respublikası ərazisində əczaçılıq sahəsinin inkişaf etdirilməsi məqsədilə **Pirallahı Sənaye Parkı,** 28 may 2021-ci il tarixində, dayanıqlı iqtisadiyyatın formlaşdırılması, işğaldan azad edilmiş regionlarda abadlıq, yenidənqurma işlərinin tətbiq edilməsi, əhalinin əlverişli sahələrdə məskunlaşmasının təmin edilməsi məqsədilə **Ağdam Sənaye Parkı** və 4 oktyabr 2021-ci il tarixində, Cəbrayıl rayonu ərazisində, Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat-kommunikasiya xətlərinin yenidən bərpası, logistiska, ticarət və digər xidmət sahələri üzrə daşımalara bu istiqamətdə şərait yaranması məqsədilə **"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı** yaradılmışdır.

**Sənaye Məhəllələri** – yüksək və müasir texnologiyalar əsasında sənaye müəssisələrinin təşkili, əhalinin həm xidmət, həm də istehsalatda məşğulluğunun təminatı, kiçik sahibkarlıq subyektlərinin ölkəmizdə fəaliyyətinin genişləndirilməsi və inkişaf etdirilməsi kimi məsələlərin həllini öz üz ərində cəmləşdirir. Sənaye məhəllələrində kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi məqsədilə güzəştli kreditlərin verilməsi, torpaq icarə haqqının aşağı həddinin müəyyən edilməsi, inzibati prosedurların asan şəkildə təşkili, səmərəli şəkildə sahibkarlığın formalaşması üçün stimullaşdırıcı tədbirlər həyata keçirilir. Hazırda sahibkarlıq fəaliyyətinin səmərəli şəkildə həyata keçirilməsi üçün Masallı, Neftçala, Hacıqabul, Sabirabad və Şərur kimi rayonlarda Sənaye Məhəllələri salınmış və daxili və xarici infrastruktur obyektləri inşa edilmişdir.

**Xüsusi İqtisadi Zonalar (XİZ)** – ölkə iqtisadiyyatının və qeyri-neft sektorunun inkişaf etdirilməsi, yerli və xarici investorların cəlb edilməsi, müasir texnoloji avadanlıqlar əsasında təşkil edilmiş sənaye müəssisələrində məhsulların istehsal edilməsi və xidmət göstərilməsində xüsusi rol oynayır. XİZ-lər dünyanın aparıcı ölkələrinin iqtisadiyyatında mühüm rol oynayır. Ölkəmizdə investisiya mühitinin təkmilləşdirilməsi və investorların cəlbi, istehsal olunan məhsulların və göstərilən xidmətlərin rəqabətədavamlılığının təmin edilməsi məqsədilə yaradılmışdır. 22 may 2020-ci il tarixində, Azərbaycan Respublikası Prezidentinin "Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Fərmanına əsasən ölkəyə investisiya axınını təmin etmək, ixracyönümlü və ya idxaləvəzləyici məhsulların istehsalının artırılması, həmçinin əhalinin məşğulluqla təminatının artırılması məqsədilə yeni iş yerlərinin açılmasını stimullaşdırmaq əsas hədəflərdən hesab olunur.

Hazırda ölkəmizdə fəaliyyət göstərən bu tipli müəssisələr qeyri-neft sektorunun inkişafına, ölkənin ixrac potensialının və ya idxaləvəzliyi məhsulların istehsalının təkmilləşdirilməsinə, investisiya və ya müasir texnologiyaların cəlbinə, regionlarda məşğulluğun artırılmasına və s. böyük töhfələr vermişdir.

Müasir dövrdə ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi, milli iqtisadiyyatın innovasiyalaşdırılması, sənaye potensialının gücləndirilməsi və s.

məqsədilə milli siyasi göstəricilərlə yanaşı, dünya təcrübəsinə əsaslanan dayanıqlı və ardıcıl iqtisadi siyasət həyata keçirilir. Son zamanlar yaradılmış sənaye obyektləri buna misal ola bilər.

Ölkəmizdə sənaye məhəllələri və parkları, xüsusi iqtisadi zonalar dövlət vəsaiti hesabına formalaşır. Buna baxmayaraq, gələcək dövrlərdə özəl kapital əsasında özəl müəssisələr tərəfindən yaradılması üçün təşviq edilməsi nəzərdə tutulmuşdur.

Ümumilikdə, qeyd edilən sənaye müəssisələri xüsusilə pandemiya dövründə, ölkə iqtisadiyyatının inkişafında və ölkəmizin neft və neft məhsullarının asılılığından azad edilməsində xüsusi rol oynamışdır. Belə ki, pandemiya dövründə bütün dünya ölkələri kimi ölkəmizin də çətin mərhələdən keçdiyi bir zamanda sənayenin inkişafı ölkənin iqtisadi böhrandan çıxmasında, həmçinin, dünya bazarında qiyməti sürətlə dəyişən neft-qaz sənayesinin asılılığından xilas olmasında mühüm rol oynamışdır. Bu səbəbdən, ölkəmizdə postpandemiya dövründə də, bu istiqamətdə tədbirlərin görülməsi yüksək qiymətləndirilir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiya işinin tədqiqi zamanı edilən araşdırmalara əsasən daha öncə də, qeyd etdiyimiz kimi, sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi nəinki ölkəmizdə, bütün dünya ölkələrində başlıca əhəmiyyət kəsb edən məsələlərdən biridir. Elm və texnikanın inkişaf etdiyi, rəqəmsallaşan dünyada sahibkarlıq fəaliyyəti ilə məşğul olmağın sadələşdirilməsi və sürətli təşkili sahibkarlar üçün əlverişli şərait yaratmışdır.

Sahibkarlığın, xüsusilə kiçik sahibkarlığın inkişaf etdirilməsi ölkələrin iqtisadiyyatında əhəmiyyətli rol oynadığından, kiçik sahibkarların maliyyə resursları ilə təminatın məhdud çərçivədə olmasına baxmayaraq sahibkarlıq fəaliyyətinin təmin edilməsi məqsədilə dövlət tərəfindən dəstək mexanizmləri hazırlanmış və təklif edilmişdir. Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanan Fərman və Sərəncamlar, "Strateji Yol Xəritəsi" layihəsi, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu tərəfindən həyata keçirilən tədbirlər və sərf olunan vəsaitlər nümunə ola bilər.

Kiçik sahibkarlıq subyektlərinin inkişafı ölkədə fəaliyyətdə olan sosial-iqtisadi proseslərlə sıx əlaqədardır. Ölkəmizdə kiçik sahibkarlıq subyektlərini fəaliyyətini digər ölkə göstəriciləri ilə müqayisə edərkən milli təsərrüfatın strukturu, təbii resurslar və infrastruktur fərqləri xüsusilə nəzərə alınmalıdır. Kiçik sahibkarlıq ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynadığından onların problemlərinin həlli və maliyyə çətinliklərinin aradan qaldırılması zəruridir. Bu səbəbdən də, kiçik sahibkarlara maliyyə dəstəyinin göstərilməsində dövlətin rolu aktual hesab olunur.

Dissertasiya işinin hazırlanması zamanı, ölkəmizdə kiçik sahibkarlıq subyektlərinin fəaliyyəti ətraflı araşdırılmış, pandemiya dövründə sahibkarların vəziyyəti, onların üzləşdiyi çətinliklər aşkar edilmiş və pandemiyanın mənfi təsir göstərdiyi sahələrin sağlamlaşdırılması üçün tətbiq edilən prosedurlar barədə ətraflı məlumat verilmişdir. Dissertasiya işinin əsas məqsədi koronavirus pandemiyası kimi yayılmış epidomoloji xəstəliklərin qaçınılmaz olduğunu və bu kimi hallara qarşı tədbirli olmağın əhəmiyyətini göstərmək, eyni zamanda bu kimi hallarda

sahibkarlara dəstək göstərmək üçün müxtəlif dəstək mexanizmlərin tətbiq edilməsinin əhəmiyyətini, həmin dəstək mexanizmlərinin genişləndirilməsi və təkmilləşirilməsinin vacib olduğunu özündə əks etdirmişdir.

Əldə edilmiş nəticələr əsasında, kiçik sahibkarlıq subyektlərini inkişaf etdirmək eyni zamanda onlara maliyyə dəstəyinin göstərilməsinin artırılması məqsədilə bir neçə təkliflər hazırlanmışdır. Aşağıda qeyd olunanlar buna aiddir:

1. Əldə edilmiş nəticələr əsasında, sahibkarlıq subyektlərinin inkişaf etdirilməsinin ölkə iqtisadiyyatında xüsusilə əhalinin məşğulluqla təminatında mühüm əhəmiyyət kəsb etdiyini müşahidə etdik. Belə ki, ölkədə belə fəaliyyət göstərən müəssisələrin sayı artırılarsa, əhalinin məşğulluqla təminatı arta və ölkədən xaricə üz tutan vətəndaşlarımızın sayı azala bilər.

2. Kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsinin birbaşa təsiri əhalinin istehlak mallarına olan tələbatı ilə əlaqədardır. Kiçik sahibkarlıq subyektlərinin artırılması yerli istehsalın həcminin artırılmasına da səbəb olur. Belə ki, dövlət tərəfindən göstərilən maliyyə yardımı nəticəsində sahibkarlar yüksək keyfiyyətli material və xammal əldə edərək həm əhalinin keyfiyyətli məhsulla təminatına, həm də idxal məhsullarının yerli istehsal məhsulları ilə əvəzlənməsinə şərait yarada bilər.

3. Ölkənin sosial və iqtisadi inkişafının təmin edilməsində kiçik sahibkarlıq subyektlərinə investisiya edilməsinin böyük rolu vardır. Kiçik sahibkarlıq subyektlərinin inkişafı birbaşa olaraq investisiya təminatını artırılması ilə əlaqəlidir. Buna əsasən, sosial-iqtisadi inkişafın bütün mərhələlərində investisiya axınının artırılmasına dövlət dəstəyinin göstərilməsi məqsədəuyğun hesab edilə bilər.

4. Son dövrlərdə, elmi-texniki tərəqqi səbəbindən rəqəmsallaşan dünyada, müasir texnoloji vasitələrin tətbiq edilməsi, ESG (ətraf mühit, sosial və korporativ idarəetmə) əsaslı layihələrin genişləndirilməsi kiçik sahibkarlığın inkişafı üçün əhəmiyyətli ola bilər.

5. İşğaldan azad edilən torpaqlarımızda dayanıqlı inkişafa nail olmaq, kiçik sahibkarlıq subyektləri yaratmaq və inkişaf etdirmək məqsədilə bir neçə məqsədli biznes layihələrinin hazırlaması, Birləşmiş Millətlər Təşkilatının (BMT) sənaye,

infrastruktur və innovativ inkişaf, sərfəli və təmiz enerjinin tətbiqi, yoxsulluğun azaldılması, gender bərabərliyinin təmin olunması əsaslı layihələrinin tətbiq edilməsi mühüm əhəmiyyət kəsb edə bilər.

6. Dissertasiya işinin tədqiqi zamanı əldə etdiyimiz məlumatlara əsasən, kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi üçün dövlət tərəfindən dəstək göstərilməsinin böyük əhəmiyyəti vardır. Buna baxmayaraq, dövlət dəstəyi olmadan və büdcədənkənar vəsaitlər hesabına kiçik sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi üçün alternativ və əlverişli maliyyə mənbələrindən istifadə edilə bilər. Dünya təcrübəsinə əsasən geniş tətbiq edilən, françayzinq, lizinq, vençur kapitalı kimi metodlar buna nümunə ola bilər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

### *Azərbaycan dilində*


1. Azərbaycan Respublikası Konstitusiyası
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi
3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu, “Sahibkarlıq fəaliyyətinin əsas hüquqi formaları”, 2021-ci il
4. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu, “Azərbaycanda sahibkarlığın inkişaf tarixi”, 2021-ci il
5. “Sahibkarlıq Fəaliyyəti Haqqında” Azərbaycan Respublikasının Qanunu.
6. “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikasının Qanunu.
7. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanunu
8. “Covid-19 pandemiyasından zərərçəkmiş sahibkarlara dövlət dəstəyinin göstərilməsi haqqında” Azərbaycan Respublikası Prezientinin Sərəncamı, 19 mart 2020-ci il
9. "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər h aqında" Azərbaycan Respublikası Prezientinin Fərmanı, 30 aprel 2007-ci il
10. “Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında” Azərbaycan Respublikası Prezientinin Fərmanı, 7 yanvar 1999-cu il
11. “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları” nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, 5 iyun 2015-ci il
12. “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”, 6 dekabr 2016-cı il
13. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi “2018-ci ilin birinci yarımilliyi üzrə qeyri-neft sektorunun inkişafı barədə” 2018 yanvar-iyun
14. Musazadə L.F – “Azərbaycanda kiçik və orta sahibkarlıq müəssisələrinin maliyyələşdirilməsi problemləri”, Magistr dissertasiyası , Bakı-2019

15. Əliyev R.E – "Sahibkarlığın inkişafının sosial-iqtisadi aspektləri", Magistr dissertasiyası , Bakı-2017
16. Quliyeva L.R – "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın müasir vəziyyəti və inkişafının statistik tədqiqi", Magistr dissertasiyası , Bakı-2016
17. Əliyeva Ş.M – "Bazar münasibətləri şəraitində kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyinin hüquqi təminatının təkmilləşdirilməsi məsələləri", Magistr dissertasiyası , Bakı-2015
18. Bağırov O.M – "Postpandemiya dövründə beynəlxalq iqtisadi münasibətlərin xarakteri və azərbaycanın iqtisadi siyasəti", 2022-ci il
19. Həsənli Y.H., Musayeva C.Q – "Covid-19 Pandemiyasının Sosial Təsirləri Və Sosial Rifahın Dəstəklənməsi İstiqamətləri", 2021-ci il
20. "Kiçik və orta sahibkarlığın iqtisadiyyatdakı rolu: Beynəlxalq təcrübə və Azərbaycan", 25 oktyabr 2016-cı il
21. Məmmədov O.Ş - "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək mexanizmi", 18 noyabr 2019-cu il
22. Əliyev Ə.B - "Tədqiqat metodları", 2019-cu il
23. Aslanov S.X - " Sahibkarlıq hüququ", 2015-ci il
24. Musayev A.F – "İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması", 2014-cü il
25. Seyfullayev İ.Z - "Sahibkarlığın tənzimlənməsinin iqtisadi-psixoloji məsələləri", 2011-ci il
26. İbrahimov İ.H - "Sahibkarlıq fəaliyyətinin Tənzimlənməsi məsələləri", 2010-cu il
27. Ataşov B.X., İbrahimov E.C., Novruzov N.A – "Müəssisələrin maliyyəsi", 2009-cu il
28. İmanov Ə.Ş - "Kiçik sahibkarlıq", Bakı, 2009-cu il
29. Məhərrəmov A.M - "Sahibkarlıq", Bakı, 2009-cu il
30. Abbasov A.B - " Biznesin əsasları", Bakı, 2005-ci il
31. Niftullayev V.M - "Sahibkarlığın Əsasları", Bakı, 2004-cü il

32. İmranov A.M – “Müştərək müəssisə və sahibkarlıq”, Bakı, 2001-ci il

### *Türk dilində*

1. Dr.Öğr.Üyesi. Mehmet Ozan Cinel - “Pandemi sürecinin KOBİ-ler üzerindeki etkileri”, 25 May, 2021
2. Dr.Öğr.Üyesi. Zeyneb Köse - “21. Yüzyıl İş ve Ekonomi Dünyasının Değişen Dinamikleri”, 2019 Mayıs
3. Dr. Selim Baha Yildiz - “Küçük ve Orta Ölçekli İşletmelerin Desteklenmesinde KOSGEB-in Rolü”, 2019

### *İngilis dilində*

1. “ Economic Effects of the COVID-19 Pandemic on Entrepreneurship and Small Businesses” Germany-2021, August
2. Asian Devolopment Bank İnstitute – “Digital Technology And Economic Impacts Of Covid-19: Experiences Of The People’s Republic Of China”, 2021
3. “The Socioeconomic Impact of COVID-19 and Oil Price Fluctuations in Azerbaijan” by İlaha Abbaslı, 2020, 15 september
4. “Theoretical, Clinical and Experimental Morphology Journal” 2018,August
5. “A Comparative Study on Development of Small and Medium Enterprises (SMEs) in Azerbaijan” – Baku-2017, November
6. “Small and medium enterprises : Consepts, Methodologies, Tools and Aplications” by Business Science Reference , 2013

### *İnternet resursları*

1. www.smb.gov.az
2. www.stat.gov.az
3. www.e-qanun.az
4. www.economy.gov.az
5. www.taxes.gov.az
6. www.nk.gov.az
7. www.kosgeb.gov.tr

# Cədvəllərin siyahısı

**Cədvəl 1:** Sahibkarlıq fəaliyyətinin hüquqi formaları............................................................ 17
**Cədvəl 2:** Sahibkarlıq subyektlərinin bölgüsü.......................................................................... 24
**Cədvəl 3:** Kiçik müəssisələrin növləri....................................................................................... 27
**Cədvəl 4:** Fəaliyyətdə olan sahibkarlıq subyektlərinin sayı .................................................... 30
**Cədvəl 5:** Azərbaycanda kiçik sahibkarlığın 2018-2020-ci illər üzrə göstəriciləri.................... 31
**Cədvəl 6:** Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən kiçik sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəriciləri....................................................................... 43
**Cədvəl 7:** İqtisadi fəaliyyət növləri üzrə sahibkarlıq subyektlərində çalışan işçilərin sayı......... 44
**Cədvəl 8:** Pandemiyadan zərərçəkmiş sahələrə dövlət dəstəyi və onların istiqamətləri............. 49
**Cədvəl 9:** Güzəştli kreditlərin göstəriciləri.................................................................................. 64